QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 044 (5764) **6 mart** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiymәti 40 qəpik**

# "Ermənistan danışıqlar prosesini pozmağa çalışır"

*Azərbaycan Prezidenti İlham Əliyev ATƏT-in fəaliyyətdə olan sədrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*

Səh 2



**Leyla Abdullayeva: "Azərbaycan ilə münasibətləri normallaşdırmadan Ermənistan heç vaxt tam müstəqil olmayacaq"**

Bax 9

*Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat katibi Leyla Abdullayeva Ermənistan Baş naziri Nikol Paşinyanın Avropa Parlamentinin Xarici Əlaqələr Komitəsində çıxışı zamanı səsləndirdiyi fikirlərə münasibət bildirib. Verilən şərhdə deyilir: "Avropa Parlamentində çıxışı zamanı Dağlıq Qarabağın gələcəyini orada yaşayan insanların müəyyən etməli olduğunu və Dağlıq Qarabağı təmsil etmədiyini iddia edən Ermənistan Baş nazirinə belə bir sual ünvanlamaq istərdim...*

**Ermənistanda 10 min nəfər dövlət qulluqçusu işsiz qalacaq**

Bax 10

*Ermənistanda hökumətin struktur islahatları nəticəsində 10 min nəfər dövlət qulluqçusu işsiz qalacaq. AZƏRTAC erməni KİV-lərinə istinadla xəbər verir ki, Paşinyan hökumətinin "hökumət strukturlarının optimallaşdırılması" adı altında həyata keçirdiyi islahatlar çərçivəsində nazirlik və idarələrdə geniş ixtisarlar nəzərdə tutulur. Belə ki, hazırda fəaliyyət göstərən 17 nazirlikdən cəmi 12-si qalacaq. Əhali arasında narazılığın artdığını görən Ermənistanın iqtisadi inkişaf və sərmayələr naziri Tiqran Xaçatryan parlamentdəki çıxışında bildirib ki, hökumət hələ bu məsələ...*

**Möhsün Nəriman: "Naxçıvan inamla inkişaf edən diyardır"**

Bax 11

*İran İslam Respublikasının qonşu Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə qarşılıqlı əlaqələri yüksək səviyyədədir. Bizim Naxçıvan Muxtar Respublikasına səfərimizin məqsədi burada yaradılan imkanlarla daha yaxından tanış olmaq, gələcəkdə birgə görəcəyimiz işlərin perspektivini müəyyən etməkdir. Bu sözləri AZƏRTAC-ın Naxçıvan bürosuna müsahibəsində İran İslam Respublikasının Araz Azad Ticarət və Sənaye Zonasının icraçı direktoru Möhsün Nəriman söyləyib. Möhsün Nəriman deyib: Araz Azad Ticarət və Sənaye...*

"Azərbaycan düşünülmüş və düzgün inkişaf yolu ilə irəliləyir"



3

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Sabunçu rayonundakı 2 saylı doğum evində olub



4

Yeni Azərbaycan Partiyasının nümayəndə heyəti Çin Xalq Respublikasında səfərdə olub



4

"Dinlərarası və sivilizasiyalararası dialoqdan əməkdaşlığa doğru" mövzusunda beynəlxalq konfrans keçirilib



5

"Nəsiminin məzarının gətirilməsi bu il gündəlikdə olacaq"



6

Milli Məclisin növbəti plenar iclası keçirilib



7

8

Müharibə qapısının açılması Ermənistanın qapısını birdəfəlik bağlayacaq



14

Riyakarlıq və nankorluq - yan-yana...



12

Cəmil Həsənlidən Qənimət Zahidə tərs şapalaq!



# “Ermənistan danışıqlar prosesini pozmağa çalışır”

*Azərbaycan Prezidenti İlham Əliyev ATƏT-in fəaliyyətdə olan sədrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 5-də ATƏT-in fəaliyyətdə olan sədri, Slovakiyanın xarici işlər və Avropa naziri Miroslav Layçakın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Miroslav Layçak ilə Davosdakı qısa görüşünü məmnunluqla xatırlayaraq, onun ölkəmizə bu səfərinin regionda vəziyyət, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli və digər məsələlərin müzakirəsi üçün yaxşı imkan yaratdığını bildirdi.

Miroslav Layçak Slovakiyanın ATƏT-ə sədrliyi dövründə müəyyən edilmiş prioritetlər barədə dövlətimizin başçısına məlumat verərək, bu sırada münaqişələrin qarşısının alınmasının və vasitəçiliyin mühüm yer tutduğunu diqqətə çatdırdı, bu dövrdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə danışıqlar prosesinə töhfə vermək əzmində olduqlarını dedi. Miroslav Layçak münaqişə ilə bağlı vəziyyətlə yerindəcə tanış olmaq və fikir mübadiləsi aparmaq üçün bu səfərin yaxşı fürsət yaratdığını bildirdi.

Ölkəmizin ATƏT-ə üzvlüyə böyük önəm verdiyini deyən dövlətimizin başçısı Azərbaycanın həm bu təşkilat çərçivəsində, həm də təşkilata üzv olan dövlətlərlə fəal iş apardığını və səmərəli tərəfdaşlıq əlaqələri qurduğunu dedi. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsinə toxunan Prezident İlham Əliyev bu münaqişənin uzun illərdir ki, davam etdiyini və Azərbaycan ərazilərinin bütün beynəlxalq hüququn norma və prinsiplərinin kobud şəkildə pozularaq Ermənistan tərəfindən işğal altında saxlanıldığını diqqətə çatdırdı. Dövlətimizin başçısı qeyd etdi ki, BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş bütün ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən qətnamələrinə, ATƏT və digər təşkilatların bu cür qərar və qətnamələrinə baxmayaraq, 25 ildən artıqdır ki, bu tələblər yerinə yetirilmir. İşğal nəticəsində bir milyona yaxın soydaşımızın qaçqın və məcburi köçkün vəziyyətinə düşdüyünü, torpaqlarımızın zəbt edildiyini, işğal olunmuş ərazilərdə qeyri-qanuni məskunlaşdırma və demoqrafik vəziyyətin dəyişdirilməsi siyasətinin həyata keçirildiyini deyən dövlətimizin başçısı Azərbaycanın bu münaqişənin tezliklə sülh yolu ilə həllində ən maraqlı tərəf olduğunu bildirdi. Danışıqlar prosesində müəyyən dinamikanın müşahidə olunduğunu, xarici işlər nazirləri səviyyəsində dörd dəfə görüşün keçirildiyini və Azərbaycan Prezidenti ilə Ermənistanın baş naziri arasında üç dəfə söhbətin aparıldığını qeyd edən dövlətimizin başçısı Ermənistan tərəfindən substantiv danışıqların aparılması üçün hər hansı ciddi niyyətin olmadığını və Ermənistanın danışıqlar prosesini pozmağa çalışdığını bildirdi. Prezident İlham Əliyev münaqişənin həllində irəliləyişlərin əldə olunması və Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmasının təmin edilməsi üçün beynəlxalq birlik tərəfindən Ermənistana ciddi təzyiqlərin göstərilməsinin vacibliyini qeyd etdi.

Görüşdə, həmçinin ATƏT-in gündəliyində duran məsələlərə, Azərbaycan və Slovakiya arasında ikitərəfli əlaqələrin inkişaf perspektivlərinə dair fikri mübadiləsi aparıldı.

# “Azərbaycan ilə İtaliya arasında siyasi, iqtisadi və digər sahələrdə çoxşaxəli əlaqələr mövcuddur”

*Prezident İlham Əliyev ATƏT PA yanında İtaliya nümayəndə heyətinin sədrini qəbul edib*



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 5-də ATƏT PA yanında İtaliya nümayəndə heyətinin sədri, İtaliya Deputatlar Palatasında Xarici Əlaqələr Komissiyasının sədr müavini Paolo Qrimoldini qəbul edib.***

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Azərbaycan ilə İtaliya arasında siyasi, iqtisadi və digər sahələrdə çoxşaxəli əlaqələrin mövcud olduğunu qeyd edərək, yüksək səviyyədə həyata keçirilən səfərlərin önəmini vurğuladı. İtaliya Prezidentinin keçən il Azərbaycana, özünün isə İtaliyaya bir neçə dəfə səfər etdiyini xatırladan dövlətimizin başçısı İtaliya Prezidentinin Azərbaycana rəsmi səfəri zamanı Azərbaycan və İtaliya prezidentlərinin İtaliya şirkətləri tərəfindən inşa edilmiş böyük sənaye müəssisəsinin açılışının qeyd edildiyini bildirdi və ölkələrimiz arasında sənaye, energetika, mədəniyyət və digər sahələrdə yaxşı əməkdaşlıq formatının olduğunu dedi.

Səfər zamanı Bakı haqqında təəssüratları barədə xoş sözlərini çatdıran Paolo Qrimoldi ölkələrimizi bir-birinə bağlayan sıx əlaqələrin mövcud olduğunu dedi. Enerji sahəsində Azərbaycan ilə İtaliya arasında bir sıra razılaşmaların olduğunu vurğulayan qonaq Azərbaycan qazını İtaliyaya çatdıracaq TAP boru kəməri üzrə işlərin uğurla davam etdirildiyini məmnunluqla vurğuladı. Paolo Qrimoldi iqtisadi sahədə əməkdaşlığımızın inkişafı ilə yanaşı, ikitərəfli münasibətlərimizin siyasi əlaqələrlə də şərtləndiyini dedi və ATƏT Parlament Assambleyasında Azərbaycan nümayəndə heyəti ilə səmərəli əməkdaşlıq həyata keçirdiklərini qeyd etdi.Görüşdə, həmçinin ölkələrimiz arasında mədəniyyət, turizm, idman və digər sahələrdə ikitərəfli əməkdaşlığın inkişaf etdirilməsinə dair məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

## Rəsmi xronika

Prezident İlham Əliyev 2019 Formula 1 Azərbaycan Qran Pri yarışının təşkili və keçirilməsi ilə bağlı Azərbaycan Respublikasına gələcək əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Ədalət Vəliyevin 3-cü dərəcəli “Əmək” ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Dövlət Musiqili Teatrına və Azərbaycan Dövlət Rus Dram Teatrına “akademik” statusu verilməsi haqqında Sərəncam imzalayıb.

# "Azərbaycan düşünülmüş və düzgün inkişaf yolu ilə irəliləyir"

## Prezident İlham Əliyev Avropa Yenidənqurma və İnkişaf Bankının prezidentinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 5-də Avropa Yenidənqurma və İnkişaf Bankının prezidenti Suma Çakrabartinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Azərbaycan ilə Avropa Yenidənqurma və İnkişaf Bankı arasında uzun illər çox uğurlu əməkdaşlığın davam etdiyini bildirərək, ümumi dəyəri 3,5 milyard dollardan artıq olan layihələrin həyata keçirilməsini Avropa Yenidənqurma və İnkişaf Bankının Azərbaycana yaxşı tərəfdaş kimi münasibətinin nümayişi kimi dəyərləndirdi və bütün bunlara görə Suma Çakrabartiyə təşəkkürünü ifadə etdi.

Xoş sözlərə görə minnətdarlığını bildirən Suma Çakrabarti dünyada neftin qiymətinin aşağı düşdüyü dövrdə Azərbaycana səfər etdiyini xatırlayaraq, ölkə iqtisadiyyatının bərpa olunaraq inkişafa qədəm qoyması münasibətilə təbriklərini çatdırdı. O, son illər ərzində Azərbaycanda həyata keçirilən islahatlar nəticəsində bir sıra sahələrdə, o cümlədən sərhəd və gömrük xidmətlərində şəffaflığın və səmərəliliyin artırıldığını, vergi sistemində dəyişikliklərin edildiyini, "ASAN xidmət" sisteminin əhatə dairəsinin genişləndirildiyini və digər istiqamətlərdə böyük uğurlar qazanıldığını qeyd etdi. Suma Çakrabarti Dünya Bankının "Doing Business 2019" hesabatında Azərbaycanın 25-ci yerə yüksəlməsinin önəmini vurğulayaraq bunu əldə edilən böyük uğur kimi dəyərləndirdi.

Prezident İlham Əliyev Avropa Yenidənqurma və İnkişaf Bankı tərəfindən Azərbaycanda həyata keçirilən layihələrin maliyyələşdirilməsinin ölkəmizdə müasir infrastrukturun yaradılması işinə böyük kömək göstərdiyini qeyd etdi və bildirdi ki, özəl sektorun bu maliyyə vəsaitindən yararlanması və müsbət istiqamətdə inkişafı Avropa Yenidənqurma və İnkişaf Bankının Azərbaycanda həyata keçirdiyi strategiyanın uğurlu olduğunu göstərir. Azərbaycanda genişmiqyaslı islahatların həyata keçirildiyini qeyd edən Prezident İlham Əliyev bu islahatların və eləcə də idarəçilikdə yeni yanaşma nəticəsində biznesin daha da inkişafı üçün əlverişli şərait yarandığını və büdcə gəlirlərinin artdığını dedi, ötən il, eləcə də bu ilin yanvar-fevral aylarında gəlirlərin plandan artıq daxil olduğunu bildirdi. Dövlətimizin başçısı hazırda Azərbaycanda gömrük və vergi sistemlərinin birgə sıx fəaliyyət göstərdiklərini və bunun nəticəsində bu orqanlarda maksimum şəffaflığın təmin edilməsi istiqamətində səmərəli nəticələrin əldə edildiyini bildirdi və qeyd etdi ki, bütün bu islahatlar və şəffaflığın təmin edilməsi əhali tərəfindən yüksək qiymətləndirilir. Azərbaycanın düşünülmüş və düzgün inkişaf yolu ilə irəlilədiyini vurğulayan dövlətimizin başçısı ölkəmizin bu sahələrdə islahatların birinci hissəsinin başlanğıcında olduğunu, bu il və qarşıdakı illərdə də bütün bunların uğurlu nəticələr verəcəyinə əminliyini ifadə etdi.

Görüşdə Avropa Yenidənqurma və İnkişaf Bankının Azərbaycanla yeni sahələrdə əməkdaşlıqda maraqlı olduğu qeyd edildi və qeyri-neft sektorunun inkişafı, şəhərdaxili nəqliyyat, bərpaolunan enerji və digər sahələrdə əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıldı.

# Prezident İlham Əliyev: "Azərbaycan İslam dəyərlərinin təbliği baxımından çox vacib rol oynayır"

***Azərbaycan İslam dəyərlərinin təbliği baxımından çox vacib rol oynayır. Biz Avropa paytaxtlarında müxtəlif beynəlxalq tədbirlər - təqdimat və sərgilər təşkil edərək, qədim İslam mədəniyyətini təbliğ edirik. Azərbaycan islamofobiya və İslamı terrorçuluqla əlaqələndirmə əleyhinə ən fəal mübarizə aparan ölkələrdəndir.***

Yəni, regionumuzu daha təhlükəsiz etmək üçün bizim müsəlman dünyasında birliyə ehtiyacımız var. AZƏRTAC xəbər verir ki, "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin yenicə çapdan çıxmış 80-ci kitabında yer alan bu fikirləri dövlətimizin başçısı 2017-ci il mayın 5-də IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun rəsmi açılış mərasimindəki nitqində səsləndirib. Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin buraxılışına məsul olduğu çoxcildliyin növbəti kitabındakı materiallar 2017-ci ilin may-iyun aylarını əhatə edir.




Kitaba Prezident İlham Əliyevin IV İslam Həmrəyliyi Oyunlarının təntənəli açılış və bağlanış mərasimlərində iştirakına, XXIII Azərbaycan Beynəlxalq Qida Sənayesi və XI Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı sərgiləri ilə tanışlığına dair materiallar, XXIV Beynəlxalq "Xəzər neft və qaz-2017" sərgi və konfransının açılış mərasimində nitqinin mətni, həmçinin VII Xəzər Beynəlxalq "Energetika və alternativ enerji" sərgisinin açılışında iştirakı haqqında informasiya daxil edilib.

Nəşrdə dövlətimizin başçısının Ərəb-İslam-Amerika Sammitində iştirak etmək üçün Səudiyyə Ərəbistanı Krallığına, habelə Polşaya səfərləri, Azərbaycana səfər etmiş Moldova Prezidenti ilə apardığı danışıqlar barədə materiallar, imzalanan sənədlər, dövlət başçılarının mətbuata bəyanatları haqqında informasiyalar toplanıb. Azərbaycan Prezidenti bütün görüş və danışıqlarda diqqəti Ermənistanın işğalçılıq siyasətinə yönəldib, dünya ictimaiyyətini Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində həllinə dəstək verməyə çağırıb. Kitabda Prezident İlham Əliyevin İslam Əməkdaşlıq Təşkilatının rəsmi mətbuat orqanı olan "OIC Journal"da dərc edilmiş "İslam həmrəyliyinin gücləndirilməsi zamanın çağırışıdır" sərlövhəli məqaləsi verilib.

Çoxcildliyin 80-ci kitabında Prezident İlham Əliyevin İordaniya, Səudiyyə Ərəbistanı, Niderland, Birləşmiş Ərəb Əmirlikləri, ABŞ və digər dövlətlərin, beynəlxalq təşkilatların ölkəmizə səfər etmiş yüksəkvəzifəli şəxslərini qəbul etməsinə dair materiallar da yer alıb.

Oxucular bu kitabda ölkə başçısının Cəbrayıl rayonunun işğaldan azad edilmiş Cocuq Mərcanlı kəndinə səfəri zamanı sakinlərlə görüşünü, burada yeni inşa olunmuş 96 şagird yerlik məktəblə, həmçinin məscidlə, kənddə aparılan bərpa işləri ilə tanışlığını, eləcə də Şirvan şəhərinə səfərini əks etdirən materiallarla tanış ola bilərlər. Nəşrdə Azərbaycan Prezidentinin Bakının Yasamal rayonunda yeni tikilən yolların açılışı, Qaradağ rayonunda SOCAR-ın "Caspian Drilling" şirkətinin dəniz texnizat və logistika bazasında Heydər Əliyev adına yarımdalma qazma qurğusunun açılışı, Xəzər Dəniz Gəmiçiliyi Donanmasının "Qubadlı" və "Cəbrayıl" gəmilərinin istismara verilməsi mərasimlərində iştirakı barədə informasiyalar toplanıb. Prezident İlham Əliyevin "Bakı Ürək Günləri" V Beynəlxalq Konqresinin iştirakçılarına məktubu və digər məktubları da bu nəşrə daxil edilib. Kitabda "Qeydlər", "Şəxsi adlar", "Coğrafi adlar" göstəriciləri verilib. "Azərnəşr" tərəfindən buraxılan 80-ci kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

# Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Sabunçu rayonundakı 2 saylı doğum evində olub

***Martın 4-də Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Bakının Sabunçu rayonunda yerləşən 2 saylı doğum evində olub. Xatırladaq ki, bu doğum evi ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 1987-ci ildə istifadəyə verilib.***



AZƏRTAC xəbər verir ki, Leyla Əliyeva doğum evindəki palataları gəzdi, dünyaya yeni göz açan körpələrin və onların analarının səhhəti ilə maraqlandı, uşaqların sağlam böyümələrini arzuladı.

Heydər Əliyev Fondu tərəfindən yeni küvəzlərlə təmin olunan tibb müəssisəsi 120 çarpayıdan ibarətdir. Doğum evində bundan əvvəl olan küvəzlər müasir standartlara cavab vermirdi.



Leyla Əliyevaya bu xüsusi aparatda saxlanılan tənəffüs və digər problemlə anadan olan uşaqların müalicəsi barədə məlumat verildi. Yeni küvəzlərdə ana və körpədə qan qrupları və rezus üzrə uyğunsuzluq xəstəliyi, tənəffüs, az çəki problemi olan, vaxtından əvvəl dünyaya gələn və intensiv terapiyaya ehtiyacı olan uşaqların müalicəsi aparılır. Hazırda 2 saylı doğum evində yeni doğulan 70-dən çox körpədən 3-ü küvəzdə saxlanılır. Həkimlər bu körpələrin vəziyyətinin sabitləşdiyini, müsbət dinamikanın müşahidə edildiyini bildirdilər.

Tibb müəssisəsində 398 işçi çalışır. Heydər Əliyev Fondunun vitse-prezidenti doğum evinin əməkdaşları ilə şəkil çəkdirdi, onlara işlərində uğurlar arzuladı.

# İşğal altındakı ərazilərdə qeyri-qanuni fəaliyyətlərin qarşısının alınması ilə bağlı beynəlxalq konfrans keçirilib

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qarşıya qoyduğu tapşırığa uyğun olaraq "Hərbi işğal altında olan ərazilərdə iqtisadi və digər fəaliyyətlərin qeyri-qanuniliyi: üçüncü tərəflərin öhdəlikləri və münaqişənin həllinə təsirləri" mövzusunda Bakıda beynəlxalq konfrans keçirilib.***



AZƏRTAC xəbər verir ki, tədbirin əsas məqsədi Ermənistan Respublikasının hərbi işğalı nəticəsində nəzarət olunmayan Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınan ərazilərində təcavüzkar dövlətin və digər ölkələrin hüquqi və fiziki şəxslərinin qanunsuz hərəkətlərini dünyanın nüfuzlu beynəlxalq hüquqşünasları və ekspertlərinin, o cümlədən ölkəmizin aidiyyəti qurumlarının mütəxəssislərinin də iştirakı ilə müzakirə etmək, bu fəaliyyətin hüquqi aspektləri və nəticələrini müəyyən etmək olub.

Konfransda əvvəlcə xarici işlər naziri Elmar Məmmədyarovun, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayevin, iqtisadiyyat nazirinin müavini Rüfət Məmmədovun və UNESCO-nun Ümumdünya İrs Mərkəzinin direktoru xanım Meçtild Rösslerin çıxışları dinlənilib.

Sonra isə konfrans "Hərbi işğal altında olan ərazilərdə qeyri-qanuni fəaliyyətlə bağlı beynəlxalq hüquqi çərçivə", "Beynəlxalq hüquqda üçüncü tərəflərin öhdəlikləri və məsuliyyəti", İşğal olunmuş ərazilərdə aparılan qanunsuz iqtisadi fəaliyyətə beynəlxalq cavab" adlı panel iclaslarla davam etdirilib.

Tədbirdə Azərbaycanda və dünyanın digər münaqişəli bölgələrində qeyri-qanuni iqtisadi fəaliyyətlə məşğul olan dövlətlərin, hüquqi və fiziki şəxslərin öhdəlikləri və məsuliyyəti, beynəlxalq ictimaiyyətin cavabdehliyi və bu cür qanunsuz hərəkətlərə reaksiyası, beynəlxalq hüququn tətbiqi kimi məsələlərin əhəmiyyəti barədə geniş fikir mübadiləsi aparılıb və bu istiqamətdə fəaliyyətin gücləndirilməsi üçün tövsiyələr təqdim edilib.

Konfrans beynəlxalq hüquqşünaslar və ekspertlərin perspektivini nəzərə alaraq Azərbaycanın işğal olunmuş torpaqlarında qeyri-qanuni fəaliyyətləri həyata keçirən Ermənistan və digər üçüncü tərəflərin qanunsuz əməllərinin hüquqi müstəvidə qarşısını almaq üçün geniş imkanlar yaradıb. Bu mövzuda beynəlxalq səviyyədə digər tədbirlərin də keçirilməsi nəzərdə tutulub.

Tədbirdə bir sıra dövlət qurumları, xarici ölkələrin və beynəlxalq təşkilatların ölkəmizdəki diplomatik missiyaları, xarici və yerli elmi-akademik dairələrin nümayəndələri də iştirak ediblər.




# Yeni Azərbaycan Partiyasının nümayəndə heyəti Çin Xalq Respublikasında səfərdə olub

***Yeni Azərbaycan Partiyasının nümayəndə heyəti Çin Xalq Respublikasında səfərdə olub. YAP-ın Siyasi təhlil və proqnozlaşdırma şöbəsinin müdiri, Milli Məclisin deputatı Aydın Mirzəzadənin və YAP Mərkəzi Aparatının məsul əməkdaşı Rafael Gülməmmədovun daxil olduğu nümayəndə heyəti Çin Kommunist Partiyasının Mərkəzi Komitəsinin milli münasibətlərin tənzimlənməsi ilə bağlı Çin təcrübəsinə dair təşkil etdiyi tədbirdə iştirak edib. Tədbirdə bir çox ölkələrin aparıcı siyasi partiyalarının nümayəndələri iştirak ediblər.***



Səfər barədə məlumat verən YAP-ın Siyasi təhlil və proqnozlaşdırma şöbəsinin müdiri, Milli Məclisin deputatı Aydın Mirzəzadə bildirib ki, 21-27 fevral tarixlərində reallaşan səfərin ilk günü tədbir iştirakçıları Çinin cənubunda yerləşən azad iqtisadi zonada əldə olunan nailiyyətlərlə tanış olublar. Nümayəndə heyətləri Quandou vilayətinin mərkəzi şəhəri olan Quanjou şəhərində elekrtrotexnika müəssisələrinin işinə baxış keçiriblər. Bu müəssisələrdə ən müasir avadanlıqlar, az işçi qüvvəsi ilə müasir məhsullar istehsal edilir.

Eyni zamanda, tədbir iştirakçıları kontinental Çinlə onun xüsusi əraziləri olan Makau və Honkonq ərazilərini birləşdirən 55 km-lik körpü ilə tanış olublar. Bu körpü uzunluğuna və texniki təhcizatına görə dünyada birincidr. 7 il ərzində tikilən körpünün inşası 20 milyard dollara başa gəlib. Bu körpünün tikilməsi nəticəsində həmin ərazilərin məsafəsi 3.30 saatdan 30 dəqiqəyə qədər qısalıb. Səfər zamanı nümayəndə heyətləri Çində ən hündür teleqüllə olan Quanjou qülləsi ilə də tanış olublar.

Tədbir çərçivəsində nümayəndə heyətləri Quandou vilayət Xalq Məsləhət Şurasının sədri ilə görüşüblər. Görüşdə 114 milyon əhalisi olan vilayətin sosial-iqtisadi inkişafı haqqında məlumat verilib. A.Mirzəzadə bildirib ki, səfərin üç günü Sincan Uyğur muxtar rayonunun mərkəzi olan Urumçi şəhərində keçib. Onun sözlərinə görə, rayonunun partiya katibi həm də Çin Kommunist Partiyasının katiblərinin biridir, partiyanın büro üzvüdür. Çin dövləti bu rayonun problemlərinin həllini diqqətdə saxlayır.

Səfər zamanı qonaqlar muxtar rayonun İslam İnstitutu və Cümə məscidi ilə tanış olublar. Nümayəndə heyətləri burada İslam dinin qorunub saxlanması, dini ayinlərin həyata keçirilməsi üçün din xadimlərinin hazırlanması prosesi ilə tanış olublar.

Bundan başqa, bölgədə müasir sənaye müəssisələrinə işinə baxış keçirilib. Tədbirin sonunda YAP nümayəndə heyəti Urumçi Mərkəzi Sarayında rayon rəhbərliyinin iştirakı ilə muxtar rayonda milli məsələlərin həlli ilə əlaqədar görülən işlərlə bağlı keçirilən kofransda iştirak edib. Konfransda həm rayon partiya komitəsinin rəhbəri, həm də bölgənin milliyyətcə uyğur olan hökumət sədrinin sosial-iqtisadi inkişafla bağlı, eləcə də uyğurların hüquqlarının qorunması istiqamətində məlumatları dinlənilib. Konfransda ayrı-ayrı millətlərin nümayəndələri çıxış edərək bu yöndə görülən işləri müsbət qiymətləndiriblər.

Səfər çərçivəsində YAP-ın nümayəndə heyəti keçirilən görüşlər zamanı Azərbaycanın inkişafı, ölkəmizin həyata keçirdiyi transmilli layihələrin əhəmiyyəti, o cümlədən Azərbaycan-Çin, Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyasının əlaqələrinə dair fikir mübadiləsi aparılıb.







# "Dinlərarası və sivilizasiyalararası dialoqdan əməkdaşlığa doğru" mövzusunda beynəlxalq konfrans keçirilib

***Dünən Bakıda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) və Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) birgə təşkilatçılığı ilə "Dinlərarası və sivilizasiyalararası dialoqdan əməkdaşlığa doğru" mövzusunda beynəlxalq konfrans keçirilib. SİA-nın verdiyi məlumata görə, tədbirdə dövlət, hökumət və ictimaiyyət nümayəndələri, ölkəmizdəki dini icma rəhbərləri və xarici qonaqlar iştirak ediblər.***



Tədbiri giriş sözü ilə açan DQİDK sədri Mübariz Qurbanlı Azərbaycanda dövlət-din münasibətlərindən danışıb. Komitə sədri deyib ki, dini ayrı-seçkiliyin gücləndiyi, bəzən dini zəmində qarşıdurmaya bilərəkdən rəvac verildiyi bir dünyada və zamanda dinlər və mədəniyyətlərarası dialoqun bərqərar olması vacibdir: "Azərbaycan özünəməxsus dövlət-din modelinə malikdir: "Azərbaycan dinlərin, mədəniyyətlərin qovşağı olan bir dövlət kimi dünyaya öz modelini göstərib. Azərbaycan mədəniyyətlər, dinlərarası münasibətlərin həyata keçirilməsində mühüm rol oynayır".

M.Qurbanlı bildirib ki, Bakı bu müzakirələrdə mərkəz şəhər kimi çıxış edir: "Bu gün Azərbaycanda 909 dini icma qeydiyyatdan keçib, onlardan 32-i xristian dini icmlardır, yəni qeyri müsəlman dini olmasıdır. Azərbaycan əhalisinin 96 faizi müsəlamandır, yerdə qalan 4 faiz müxtəlif dini konfensiyaları özündə əks etdirir və onların Azərbaycanda hərtərəfli fəaliyyəti üçün hər şərait yaradıb. Azərbaycan dini etiqad, vicdan azadlığı baxımından dünyada nümunə göstərilə biləcək ölkələr sırasındadır, bəlkə də bu ölkələrdən birincisidir. Azərbaycan müxtəlif dinlərin sivilzasiyaların qovşağında yerləşən ölkədir. Bu xüsusiyyətimiz xalqımıxın xarakterinə, tarixində əksini tapıb".

Konfransda çıxış edən QMİ-nin sədri şeyxülislam Allahşükür Paşazadə deyib ki, Azərbaycanda milli və bəşəri dəyərlərə hər zaman böyük önəm verilib. Ölkəmizdə dini-mənəvi irsə ehtiram, müxtəlif mədəniyyətlərin dialoqu, tolerantlıq ənənələri olduqca yüksək səviyyədədir. Milli və dini tolerantlıq dövlət səviyyəsində dəstəklənir. Etnik və dini müxtəliflik ölkəmizin milli sərvəti kimi dəyərləndirilir. "Bu, bizim qürur mənbəyimizdir. Təbii ki, burada siyasi iradə böyük önəm daşıyır. Din-dövlət münasibətlərinin əsasını xalqımızın ümummilli lideri Heydər Əliyev qoyub və hazırda yüksək səviyyədə davam və inkişaf etdirilir. Prezident İlham Əliyev dünya miqyasında multikulturalizm ideyasının fəal təbliğatçısı, mədəniyyətlərarası əməkdaşlığa dair "Bakı prosesi"nin müəllifidir. Ölkəmiz artıq mədəniyyətlərarası, dinlərarası dialoqa dair mötəbər beynəlxalq tədbirlərin, o cümlədən Dini Liderlərin Ümumdünya Sammitinin keçirildiyi ənənəvi məkana çevrilib",-deyə QMİ sədri vurğulayıb.

ABŞ Etnik Anlaşma Fondunun prezidenti Mark Şnayer bildirib ki, Azərbaycan dinlərarası və məzhəblərarası münasibətlərə görə bütün dövlətlərə nümunə ola bilər. Azərbaycan tolerantlıq ənənələrinə görə təkcə müsəlman aləmi üçün deyil, bütün dünya üçün nümunəvi ölkədir. Azərbaycanda tolerantlıq, dini dözümlülük yüzilliklər boyu hökm sürüb. Bu səbəbdən Azərbaycanda xüsusi olaraq "Tolerantlıq ili"nin elan edilməsinə ehtiyac görməyən M.Şnayer bildirib ki, Heydər Əliyev Azərbaycanda tolerantlığın möhkəmlənməsində xüsusi rol oynayıb. Tolerantlıq, dini dözümlülük onun üçün prioritet məsələyə çevrilib. M.Şnayer qeyd edib ki, təmsil etdiyi təşkilat evangelist xristianları ilə dünya müsəlmanları arasında körpü yaratmağı qarşısına məqsəd qoyub: "Müşahidələrimiz əsasında deyə bilərik ki, hələ ki müsəlmanlarla evangelist xristianları arasında anlaşma yoxdur. Amma Azərbaycan kimi dövlətdə bu tədbirə tanınmış evangelist liderlərinin qatılması tədbirin mahiyyətinə böyük töhfə verir. ABŞ-da azərbaycanlılarla xristianların münasibətləri arasında olan boşluq Azərbaycanda aparılan təbliğat əsasında aradan qaldırıla bilər".

Konfransda çıxış edən Azərbaycan Respublikası Prezidenti Administrasiyasının millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov ölkəmizin dövlət-din münasibətləri sahəsində qazandığı uğurlardan danışıb: "Azərbaycanda tolerantlıq mühitinin daha da möhkəmləndirilməsi daim dövlətin nəzarətində saxlanılır. Azərbaycan vətəndaşlarının dini etiqad azadlığının təmin edilməsi ölkəmizin daxili siyasətinin tərkib hissələrindədir: "Azərbaycan dövləti ölkə vətəndaşlarının dini etiqad azadlığına onların hüquq və azadlıqlarının tərkib hissəsi kimi yanaşır. Azərbaycan vətəndaşlarının dini etiqad azadlığının təmin edilməsi ölkə qanunvericiliyində öz əksini tapıb".

E.Nəcəfov bildirib ki, Azərbaycanda dövlət-din münasibətlərinin yüksək səviyyədə olmasına nümunə kimi milli etiqad azadlığı ilə yanaşı, bütün din və məzhəblərin qanun qarşısında bərabər olması qeyd edilməlidir: "Azərbaycan əhalisinin 96 faizi müsəlmandır. Buna baxmayaraq, dövlət dinlər arasında heç bir ayrı-seçkiliyə yol vermir. Dövlət-din münasibətlərinə dair daha bir nailiyyət ondan ibarətdir ki, dövlət bütün dini qurumların hər birinə lazımi kömək, o cümlədən maliyyə dəstəyi göstərir. Son dövrlərdə Bakıda və regionda çoxsaylı rus pravoslav, gürcü pravoslav, alban-udin kilsə və məbədləri, yəhudi sinaqoqları əsaslı təmir edilib". Administrasiya rəsmisi deyib ki, Azərbaycan dövləti ölkədə fəaliyyət göstərən dini qurumlara mənəvi yardım da göstərir. Bütün Cənubi Qafqaz regionunda ilk dəfə olaraq 16 noyabr - Beynəlxalq Tolerantlıq Günü Azərbaycanda qeyd olunub.

Şöbə müdiri əlavə edib ki, Azərbaycanda dini azadlığın yüksək səviyyədə təmin edilməsi, bütün dini məzhəblərin qanun qarşısında bərabər olması, dini qurumlara dövlət dəstəyinin göstərilməsi öz məntiqi nəticəsi kimi ölkə daxilində dinlərarası münasibətlərin qarşısılıqlı hörmət əsasında qurulmasına səbəb olub.

Multikulturalizmin Azərbaycan xalqının həyat tərzi olduğunu deyən Milli Məclis sədrinin müavini Bahar Muradova bildirib ki, bu gün Azərbaycan dünyada dialoq mərkəzinə çevrilib, sülh çağırışları edən ölkə imici qazanıb: "Azərbaycan əməkdaşlıq və dialoq məkanıdır, dünyaya sülh çağırışı edən ölkədir, çünki ölkəmiz özü münaqişələrə, terrora məruz qalıb. Azərbaycan islam ölkələri arasında ilk dəfə demokratik cümhuriyyət quran, insanlara etnik mənsubiyyəti, inancı, siyasi dünyagörüşündən asılı olmayaraq, vətəndaşı cəmiyyət quruculuğuna cəlb edən, onları bərabər hüquqlarla təmin edən ilk ölkədir. Bu, bütün dünyanın, demokratik cəmiyyəti hədəf götürən bütün insanlığın nailiyyətidir. Azərbaycandakı tolerant mühit əldə olunmuş nailiyyət deyil. Bu, bizim birgə yaşam tərzimizdir".

B.Muradova qeyd edib ki, bu gün xalqlar arasında harmoniyanı əldə etmək üçün dinlərarası münasibətlər inkişaf etməlidir: "Hamımız sülhə xidmət etməliyik. Dini, siyasi, iqtisadi, mədəni əlaqələrimiz və imkanlarımızdan istifadə edərək sülh və əmin-amanlığın, təhlükəsizlik bir dünyanın yaranmasına xidmət etməyi düşünməliyik. Biz bu çağırışı edirik. Hüquqi dövlətin əsas işi tərəqqiyə və sosial-iqtisadi inkişafa gətirib çıxaran cəmiyyət qurmaq və bu cəmiyyətin mərkəzi fiquru olan insanın rifahını təmin etmək üçün çalışmaqdır. Azərbaycan dayanıqlı inkişaf məqsədlərinə çox geniş şəkildə əməl edir. Bu məqsədlərin içərisində dini və etnik, mədəniyyətlərarası dialoqun əməkdaşlığa keçidi çox vacibdir".

Azərbaycan Respublikasının Milli Məclisinin ictimai və birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov isə deyib ki, dini etiqad azadlığı yeganə hüquqlardan biridir ki, insan hüquqlarını sadaladıqda birinci yerdə olmalıdır: "Bu hüququn pozulması digər hüquqların da pozulmasına səbəb olur. Azərbaycanda həm qanunun aliliyi həm də ənənələrin möhkəmliyi dini münasibətlərin inkişafına xidmət edir. Komitə sədri bildirib ki, dini etiqad azadlığı yeganə həm təbii, həm də konstutisiya ilə tənzimlənən yeganə hüquqdur: "İnsan hüquqları arasında birinci olaraq Dini etiqad azadlığı dayanır. Çünki istənilən istənilən dini etiqad azadlığına qarşı atılan addım insanların digər hüquqlarının pozulmasına gətirib çıxarır. Nəinki Azərbaycanda məscidlər, senaqoqlar, kilsələr,eləcə də Azərbaycan sərhədlərindən kənarda Qərbi-Şərqi Avropada bərabər şəkildə təmir edilib istifadəyə verilməsi əsas diqqət ayrılan məsələlərdən biridir. Bu məsələ birbaşa ölkə başçımızın və Heydər Əliyev Fondunun diqqətində saxlanılır. Bu yaxınlarda biz Cənubi Qafqazda qədim məscidin açılışında olduq. Hər hansı məsələyə ədalətsiz yanaşılması bir çox mövzulara təsir edir. Biz bu gün ayrı-ayrı dövlətlərin öz maraqlarını həyata keçirmək üçün din pərdəsi altında müəyyən addımlar atdığının şahidi oluruq. Bu cür davranışlar bəşəriyyətdə dini münasibətlərə müsbət təsir göstərmir. Bu kimi davranışlar dövlətlər arasında münasibətlərin pozulmasına, millətlər arasında dostluq, qonşuluq əlaqələrinin pisləşməsinə gətirib çıxarır. 20 faizdən çox Azərbaycan torpaqlarının ermənilərin işğalı altında olması, 1 milyondan artıq məcburi köçkünün olması, bu yaxınlarda 27-ci il dönümünü qeyd etdiyimiz Xocalı hadisələrinin baş verməsində bilavasitə bu amillərin rolu var. Bu istiqamətdə bir fakta toxunmaq istərdim. Din xadimi xalqalar arasında sülh və əminamanlığın yaranmasına xidmət etməlidir. Təəssüf ki, Ermənistanda dinin özü işğalçılıq siyasətimə xidmət edir, din xadimləri isə bu davranışları dəstəkləyir. Din xadimləri bu hadisələri pisləyib, qarşısını almaqdansa, bu hadisələrə haqq verir və işğal siyəsitinin davam etdirilməsini təbliğ edir. Dəfələrlə şəhidlərimizin cəsədlərinin qaytarılması istiqamətində ermənistanın dini xadimlərinə müraciət olunsa da, bizə müsbət reaksiya verməkdən imtina ediblər".

S.Novruzov əlavə edib ki, Dilqəm və Şahbaza qondarma məhkəmə qurulması ermənilərin dini anlayışlarının nə dərəcədə aşağı səviyyədə olduğuma diqqət çəkib: "Dilqəm və Şahbaza Ermənistanda qondarma məhkəmə qurulub və onların hüquqları pozulub. Bu istiqamətdə də bizim müraciətlərimizə, danışıqlara din xadimləri tərəfimdən müsbət reaksiya verilməyib. O baxımdan düşünürəm ki, bu cür tədbir və təbliğatlar dünyanın bütün ölkələrində keçirilməlidir ki, bu cür halların qarşısı alınsın".

Konfrans işini davam etdirib. Konfransdan sonra nümayəndə heyətinin iştirakı ilə brifinq keçirilib və jurnalistləri maraqlandıran suallara aydınlıq gətirilib.

***Ceyhun Rasimoğlu***

# "Sevinirik ki, bizim belə Prezidentimiz var"



**Ölkəmizdə kino, teatr, musiqi, tətbiqi sənət, tarixi abidələrin qorunması və bərpası ilə bağlı Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamları ilə həyata keçirilən layihələr bu sahəyə dövlətimiz tərəfindən böyük dəstək verildiyini bir daha təsdiqləyir. Mədəniyyətin tərəqqisinə dövlətimizin himayəsi son illər həyata keçirilən genişmiqyaslı layihələrdə öz əksini tapmışdır.**

Dünyanın heç bir ölkəsində mədəniyyət və incəsənət xadimlərinə Azərbaycandakı qədər diqqət və qayğı göstərilmir. Azərbaycan Prezidenti İlham Əliyevin və Azərbaycanın Birinci Xanımı Mehriban Əliyevanın mədəniyyət və incəsənət xadimlərinin bir qrupu ilə görüşü bu sahəyə ayrılan diqqətin daha bir təzahürüdür. Cənab Prezident iş qrafikinin gərgin olmasına baxmayaraq, mədəniyyət xadimləri ilə görüşərək, onların qaldırdıqları məsələləri, irəli sürdükləri təklifləri dinləyib. Görüşdə iştirak edən Azərbaycan Bəstəkarlar İttifaqının sədri, xalq artisti Firəngiz Əlizadə ilə əlaqə saxlayaraq, onun fikirlərini öyrəndik. O, bu görüşdən böyük təəssüratlarla ayrıldığını bildirərək, görüşün böyük əhəmiyyət kəsb etdiyini diqqətə çatdırdı: "Əlbəttə, təəssüratlarım çox zəngindir. Təbii ki, dövlət başçısı ilə üz-üzə olan bu görüş məndə böyük məmnunluq hissi yaratmış oldu. Son zamanlar dövlətimizin başçısının cəmiyyətin ən müxtəlif təbəqələri ilə səmimi görüşləri hər kəsdə məmnunluq yaradır. Bu, xalq-iqtidar birliyinin təcəssümüdür. Bizi təmkinlə dinləyən Cənab Prezidentin sonda xronoloji ardıcıllıqla vacib məsələlərin həlli ilə bağlı tapşırıqlar verməsi, bu, diqqət və qayğının daha bir əyani göstəricisi idi. Mən deyərdim ki, bəzi məmurlarımız bundan ibrət götürməlidirlər. Heç kəsin sözünü kəsmədən, iş qrafikinin sıx olmasına baxmayaraq, təmkinlə bizi dinlədi. Cənab Prezident bildirdi ki, belə səmimi və açıq söhbət bir çox məsələlərin həlli üçün gözəl imkanlar yaradır: "Mən təklif edirəm, belə görüşlər bu və ya digər formatda, müntəzəm olaraq, keçirilsin ki, bizim bu sahədə görəcəyimiz işlər daha düzgün aparılsın, daha sistemli xarakter alsın, bu gün bizim yaradıcı ictimaiyyətimizi narahat edən problemlərin hamısı həll olunsun". Təbii ki, Prezidentimiz tərəfindən söylənilən bu fikirlər bizi daha da ruhlandırmış oldu".

Prezident İlham Əliyev mədəniyyət və incəsənət xadimlərinin qayğılarını, problemlərini hər zaman diqqətdə saxlayır. Dövlətimizin başçısı onlara mükafatların verilməsi, yubileylərinin keçirilməsi, yaşayış şəraitinin yaxşılaşdırılması istiqamətində, mütəmadi olaraq, sərəncamlar imzalayır. Prezident İlham Əliyevin və Birinci Xanım Mehriban Əliyevanın mədəniyyət xadimləri ilə bu görüşündə, bütövlükdə, incəsənətimizin və ədəbiyyatımızın ayrı-ayrı problemləri, eləcə də, müəyyən sənətkarlar və tarixi şəxsiyyətlərlə bağlı məsələlər diqqətə çəkilib. "Bu görüşdə önəmli məsələlər qaldırıldı, təkliflər irəli sürüldü", - deyən Firəngiz xanım dövlət başçısının təklifləri dinləyərək, vacib məsələlərin həlli ilə bağlı tapşırıqlar verdiyini vurğuladı: "Deməli olar ki, Prezident İlham Əliyev mövcud olan problemləri yerindəcə həll etdi. Biz sevinirik ki, bizim belə Prezidentimiz var. Cənab Prezident bu görüşün daha geniş formatda olduğunu bildirərək, buna ehtiyac olduğunu da diqqətə çatdırdı: "Çünki ölkəmiz yeni inkişaf mərhələsinə qədəm qoyur, bütün sahələrdə çox ciddi islahatlar aparılır. İslahatların yeni mərhələsinin anonsu keçən il prezident seçkilərindən sonra verilmişdir. Ciddi islahatların hazırlanması üçün keçən ilin ikinci yarısında çox fəal iş aparılırdı və bu ilin əvvəlindən genişmiqyaslı islahatlara start verildi. Bu islahatlar bütün sahələri əhatə edəcək. Buna ehtiyac var".

Bildiyiniz kimi, Azərbaycan Bəstəkarlar İttifaqının 2009-cu ildə unudulmaz açılışı oldu. Cənab Prezidentin və Onun ailəsinin çox böyük diqqəti, dəstəyi ilə bu mərasim həyata keçirildi. Uzun illərdən sonra Bəstəkarlar İttifaqı, nəhayət, öz evinə qayıtdı. Artıq 10 ildir ki, bəstəkarlarımız və musiqişünaslarımız təqaüd alırlar. Bu da 85 illik tariximizdə ilk dəfə olan bir hadisədir, az məbləğ də deyil. 30 nəfər yaşlı, 10 nəfər isə gənc Prezident Təqaüdü alırlar".

F.Əlizadə Cənab Prezidentə bəstəkarlarımıza verilən fəxri adlara, evlərə görə minnətdarlığını da bildirib. Mövcud olan problemlər ətrafında Prezidentə məlumat verib. "Demək olar ki, qeyd olunan məsələlər yerindəcə həllini tapdı", - deyən Bəstəkarlar İttifaqının sədri artıq nəticələri gördüklərini də söylədi. Qaldırılan vacib məsələlərin həlli ilə bağlı tapşırıqlarını verən dövlət başçısı görüşün yekununda çıxışda bildirdi ki, bugünkü görüş, bir daha onu göstərir ki, bunun çox böyük faydası var: "Çünki burada qaldırılan məsələlər, doğrudan da, vacibdir və hesab edirəm ki, bu məsələlərin həlli bir çox mətləblərə aydınlıq gətirə bilər. Mən artıq mədəniyyət nazirinə göstəriş vermişəm, eyni zamanda, Prezident Administrasiyasına da göstəriş verirəm ki, burada səslənən bütün təkliflər təhlil olunsun, bir proqram halına salınsın və biz bu məsələləri, ardıcıl olaraq, həll edə bilək".

Bəstəkarlar İttifaqı tərəfindən qaldırılmış təkliflər də Prezident tərəfindən diqqətdə olub. Mənim irəli sürdüyüm bəstəkar Yaşar İmanovun mənzil probleminin həlli ilə bağlı məsələni də Cənab Prezident həmin gün Bakı Şəhər İcra Hakimiyyətinə göstəriş veriləcəyini vurğulayıb. "Əgər mən bunu əvvəldən bilsəydim, çoxdan bu məsələ həll olunardı" - deyən Prezident son illər ərzində yüzlərlə görkəmli mədəniyyət xadiminin dövlət tərəfindən mənzillərlə təmin olunduğunu diqqətə çatdırdı. Əlbəttə ki, bu münasibət bizi daha da ruhlandırdı. Mən də bəstəkarlarımızın və musiqişünaslarımızın dərin minnətdarlığını Cənab Prezidentə bir daha bildirmək istərdim".

**Nəzakət ƏLƏDDİNQIZI**

# Azərbaycan mədəniyyəti və incəsənəti yeni inkişaf mərhələsini yaşayır

*Dövlət başçısının Sərəncamına əsasən, Azərbaycan teatr ənənələrinin qorunub-saxlanması və dövrün tələblərinə uyğun inkişaf etdirilməsi üçün dövlət büdcəsindən 1,8 milyon manat ayrılıb*



**Azərbaycan milli mədəniyyətinin inkişafı dövlət mədəniyyət siyasətinin əsasında dayanan prioritet məsələlərdəndir. Mədəniyyət və incəsənətin inkişafını stimullaşdırmaq dövlət siyasətində xüsusi əhəmiyyət kəsb edir. Belə ki, mədəni və tarixi irsin mühafizə olunması, yaradıcılığın dəstəklənməsi, kadr hazırlığı və gənc istedadların dəstəklənməsi, milli sənətin inkişafı və s. diqqətdə saxlanılır.**

Müasir həyatımızda mədəniyyət və incəsənətin müxtəlif sahələrini əhatə edən növləri ayrı-ayrılıqda Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən diqqətdə saxlanılır və onun inkişafına yüksək səviyyədə şərait yaradılır. Elə bu günlərdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Birinci Xanım Mehriban Əliyevanın mədəniyyət və incəsənət xadimlərinin bir qrupu ilə görüşləri bu diqqətin daha bir nümunəsidir. Görüşdə mədəniyyət sahəsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb və görüləcək işlər haqqında danışılıb.

Ulu Öndər Heydər Əliyev ənənələrini uğurla davam etdirən Prezident İlham Əliyevin sərəncamları ilə teatr binaları təmir və bərpa etdirilib, onların dünya teatr səhnəsinə uyğun olaraq, fəaliyyət göstərmələrinə hər cür şərait yaradılıb. Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrı, Dövlət Rus Dram Teatrı, Dövlət Gənc Tamaşaçılar Teatrı, Dövlət Akademik Milli Dram Teatrı binaları və s. yüksək səviyyədə təmir-bərpa edilib. Prezidentin Sərəncamı əsasında teatr xadimlərinə xüsusi mükafatlar, fəxri adlar verilir və həyat şəraitləri yüksəldilir. Dövlət tərəfindən bu sahənin mütəxəssislərinin maddi-sosial rifahlarının yaxşılaşdırılması istiqamətində görülən hər bir iş daxildə olan potensialın üzə çıxmasına təkan verən amillərdir. Yaradıcı simalar, mədəniyyət və incəsənimizin görkəmli nümayəndələrinə fəxri ad və mükafatlar verilib və onlar mənzillərlə təmini olunublar. Azərbaycan milli mədəniyyəti müasir həyatımızda bu diqqət və qayğının nəticəsi olaraq, özünün yeni bir dövrünü yaşayır.

Azərbaycan Prezidenti İlham Əliyev "Azərbaycan teatrlarının inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" 4 mart tarixində Sərəncamı imzalayıb. Sərəncamda qeyd olunur ki, Azərbaycan teatrının fəaliyyəti, həmişə olduğu kimi, bu gün də dövlətimizin diqqət mərkəzindədir. Milli teatrın parlaq bədii irsinin qorunması, teatr sahəsində islahatların aparılması, teatr mədəniyyətinin təbliği və bütövlükdə, Azərbaycan teatr sənətinin inkişafı ilə bağlı silsilə tədbirlər həyata keçirilir. Sərəncama əsasən, Azərbaycan teatr ənənələrinin qorunub-saxlanması və dövrün tələblərinə uyğun inkişaf etdirilməsi üçün dövlət büdcəsindən Mədəniyyət Nazirliyinə 1,8 milyon (bir milyon səkkiz yüz min) manat, o cümlədən, Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı, Azərbaycan Dövlət Musiqili Teatrı, Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı, Azərbaycan Dövlət Rus Dram Teatrı və Azərbaycan Dövlət Kukla Teatrının hər birinə 200,0 (iki yüz) min manat, Naxçıvan Dövlət Musiqili Dram Teatrı, Gəncə Dövlət Dram Teatrı, Sumqayıt Dövlət Dram Teatrı, Mingəçevir Dövlət Dram Teatrı, Lənkəran Dövlət Dram Teatrı və Şuşa Dövlət Musiqili Dram Teatrının hər birinə 100,0 (yüz) min manat ayrılıb.

Bu Sərəncam ölkəmizin ictimai-mədəni həyatında daim fəal rol oynamış Azərbaycan teatr sənətinə dövlətimiz tərəfindən daha bir diqqətdir. Təbii ki, cəmiyyətimizdə milli və ümumbəşəri dəyərlərin təbliğində, vətənpərvərlik ruhunun, yüksək mənəvi keyfiyyətlərin aşılanması və estetik zövqün formalaşdırılmasında teatrın rolu müstəsnadır. Azərbaycan peşəkar teatrı zaman-zaman inkişaf etmiş, bu gün də yeni dövrünü yaşayır.

**Zümrüd BAYRAMOVA**



# "Nəsiminin məzarının gətirilməsi bu il gündəlikdə olacaq"

"Nəsiminin məzarı Hələbdə müqəddəs ziyarətgah kimi qəbul olunub. Ora çoxlu ziyarətçilər gəlirlər. Biz o məzarın yenidən qurulması və Azərbaycana aid bir mərkəzin yaradılması ilə bağlı söhbətlər aparmışdıq". Bu sözləri dünən keçirilən mətbuat konfransında SİA əməkdaşının verdiyi suala cavab olaraq nazir Əbülfəs Qarayev bildirib. O, əlavə edib ki, Hələbin bugünkü gərgin vəziyyəti bu layihəni tamamlamağa hələ ki, imkan vermir. Nazir bildirb ki, Leyla xanım Əliyevanın təşəbbüsü ilə keçirilən Nəsimi Poeziya Festivalında Suriyadan gələn qonaqlar da iştirak edirdi və onlar Nəsimi poeziyasına böyük rəğbət bəsləyirlər: "Hesab edirəm ki, "Nəsimi ili"nin elan olunması dahi Nəsiminin böyüklüyünü bir daha sübut edir. Nəsiminin məzarının gətirilməsi hesab edirəm bu il gündəlikdə olacaq".

# "Ermənistan işğal etdiyi Azərbaycan torpaqlarından faydalanır"



"Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş ərazilərində üçüncü tərəflərin həyata keçirdiyi iqtisadi və mədəni tədbirlərin verdiyi ziyanların beynəlxalq hüquq müstəvisində dəyərləndirilməsi ilə bağlı mövzular müzakirə edilir". SİA-nın məlumatına görə, bunu jurnalistlərə açıqlamasında Bakıda keçirilən "Hərbi işğal altında olan ərazilərdə iqtisadi və digər fəaliyyətlərin qeyri-qanuniliyi: üçüncü tərəflərin öhdəlikləri və münaqişənin həllinə təsirləri" mövzusunda beynəlxalq konfransda iştirak edən Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral deyib. O qeyd edib ki, Ermənistan işğal etdiyi Azərbaycan torpaqlarından iqtisadi cəhətdən faydalanır: "Ermənistan işğal etdiyi Azərbaycan torpaqlarının zəngin sərvətindən istifadə edir. Bu sərvətlər tamamilə Azərbaycana məxsusdur. Hazırda keçirilən beynəlxalq konfransda bu qeyri-qanuni fəaliyyətin qarşısının alınması üçün hüquqi yönlər müzakirə olunur, ekspertlər öz fikirlərini bildirirlər".

**Elgün Vidadioğlu**

# Milli Məclisin növbəti plenar iclası keçirilib



***Martın 5-də Milli Məclisin növbəti plenar iclası keçirilib. İclasın müzakirəsinə 18 məsələ çıxarılıb. Belə ki, iclasda Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Elmira Süleymanova ombudsmanın 2018-ci il üçün illik məruzəsini təqdim edib. Bildirilib ki, illik məruzə qanuna uyğun olaraq Azərbaycan Prezidentinə, Nazirlər Kabinetinə, Konstitusiya Məhkəməsinə, Ali Məhkəməyə və Baş Prokurorluğa göndərilib.***

İllik məruzədə müvəkkilin mülki və siyasi, iqtisadi, sosial və mədəni hüquqların, habelə müxtəlif əhali qruplarının hüquq və azadlıqlarının müdafiəsi sahəsindəki fəaliyyəti, həmçinin insan hüquqları üzrə maarifləndirmə istiqamətində həyata keçirdiyi tədbirlər, elmi-analitik sahədə fəaliyyəti, ictimaiyyətlə və kütləvi informasiya vasitələri ilə əlaqələri, beynəlxalq əməkdaşlıq məsələləri, eyni zamanda, insan hüquqlarının səmərəli təmin edilməsinə, əhalinin müxtəlif qruplarının problemlərinin həllinə yönəlmiş təklif və tövsiyələri əksini tapıb.

Diqqətə çatdırılıb ki, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinin qeyd edildiyi 2018-ci il tarixi hadisələrlə zəngin olub. Ölkəmizdə prezident seçkiləri keçirilib. Dövlətimizin başçısı İlham Əliyev seçkilərdə inamlı qələbə qazanaraq növbəti müddətə Azərbaycan Respublikasının Prezidenti seçilib. Seçkilər yüksək fəallıq şəraitində, demokratik, azad, şəffaf, ədalətli, qanunvericiliyə və beynəlxalq standartlara uyğun keçirilib, ölkəmizin hüquqi, demokratik dövlət quruculuğu və milli dövlətçilik prinsiplərinin sadiqliyini, xalqımızın öz Prezidentinə yüksək etimadını və dəstəyini bir daha təsdiqləyib.

Dərin islahatlar ili olan 2018-ci ildən sosial problemlərin həllinə yönəlmiş fərman və sərəncamlar, xüsusən bu günlərdə Azərbaycan Prezidentinin iqtisadi və sosial məsələlərlə bağlı müşavirədə verdiyi bir çox tapşırıqlar, o cümlədən problemli kreditlərin həlli əhalinin bütün qruplarını əhatə etməklə dövlətin ali məqsədi olan insan və vətəndaş hüquq və azadlıqların, vətəndaşların layiqli həyat səviyyəsinin təmin olunmasına xidmət edir. "ASAN xidmət", "ABAD", "DOST", "DAİM" mərkəzləri, KOB evləri, Əmlak Xidmətləri Məkanı, habelə Qida Təhlükəsizliyi Agentliyi və digər prioritet məsələlər üzrə yeni qurumlar yaradılıb ki, bunlar da birbaşa və ya dolayısı ilə insan hüquqlarının daha səmərəli təmin edilməsinə yönəlib.

Qeyd edilib ki, Müvəkkil 2018-ci ildə pozulmuş hüquqların bərpası və ya pozulmasının qarşısının alınması istiqamətində dövlət qurumları və vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığı davam etdirib. Hüquq mədəniyyətinin yüksəldilməsinə və hüquqi biliklərin yayılmasına xidmət edən, o cümlədən ənənəvi olaraq insan hüquqları üzrə aylıqlar çərçivəsində geniş maarifləndirmə tədbirləri həyata keçirilib. 2018-ci ildə Müvəkkilin ünvanına ümumilikdə 20 min 400 müraciət daxil olub, icraata qəbul edilmiş şikayətlərin 63,5 faizi təmin olunub. Sosial təminat hüququ, o cümlədən pensiyaların yenidən hesablanması, birdəfəlik yardım, müavinət, əlillik dərəcəsinin təyin olunması, sanatoriya-kurort yollayışının verilməsi ilə bağlı bir sıra müraciətlər araşdırılıb, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə əməkdaşlıq çərçivəsində həllini tapıb. Respublikanın ərazi bütövlüyü uğrunda həlak olmuş hərbi qulluqçuların vərəsələrinə 11 min manat birdəfəlik ödəmənin, şəhid ailələrinə və Qarabağ müharibəsi əlillərinə ötən il 626 mənzilin verilməsi bu qəbildən olan insanların sosial rifahının yüksəlməsinə xidmət edib.

Eyni zamanda, vətəndaşların təhsil hüququnun daha səmərəli təmin olunması məqsədilə son illərdə yeni məktəb binaları tikilib, 3200-dən çox məktəb binasında tikinti və əsaslı təmir işləri aparılıb, tədris və dərs vəsaitləri, müasir avadanlıqla təchizat yaxşılaşdırılıb. Ötən il 43 rayonda 140-dan çox modul tipli məktəb quraşdırılıb.

Saxlanılan şəxslərlə rəftar, saxlanma şəraiti, qidalanma, tibbi xidmətin vəziyyəti öyrənilib, konfidensiallıq təmin olunmaqla ümumilikdə 3 min 114 saxlanılan şəxslə görüşlər keçirilib, müraciətlər yerində araşdırılıb, müvafiq tədbirlər görülüb, tövsiyələr verilib. Cəza siyasətinin humanistləşməsi və alternativ cəzaların tətbiqi ilə əlaqədar məhkəmələr tərəfindən 6 minə yaxın məhkum haqqında sənədlərə baxılaraq təmin edilib, 4200-dən çox şəxs cəzadan azad olunub, yaxud cəza müddətləri azaldılıb, 900-dən çox məhkuma elektron qolbaq tətbiq edilib. İndiyədək ölkəmizdə 11 amnistiya aktının, 64 əfv fərman və sərəncamının icrası nəticəsində minlərlə insan cəzadan azad edilərək cəmiyyətə və ailələrinə qovuşub.

Müzakirələrdən sonra illik məruzə səsə qoyularaq nəzərə alınıb.

Daha sonra Milli Məclis sədrinin birinci müavini, müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov "Hərbi vəzifə və hərbi xidmət haqqında", "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" qanunlarda, Cəzaların İcrası və İnzibati Xətalar məcəllələrində dəyişiklik edilməsi barədə qanun layihəsini üçüncü oxunuşda təqdim edib. Bildirib ki, dəyişikliklər uyğunlaşdırma xarakteri daşıyır.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini üçüncü oxunuşda şərh edib. Qeyd olunub ki, dəyişikliklər vəkillik fəaliyyətinin təkmilləşdirilməsi məqsədini daşıyır. İxtisas imtahanının ildə bir dəfədən az olmayaraq keçirilməsi nəzərdə tutulur. Vəkil olmaq istəyən şəxslər yazılı test mərhələsi və şifahi müsahibədən ibarət ixtisas imtahanlarından müvəffəqiyyətlə keçməlidir. Layihəyə əsasən yazılı test imtahanında müvəffəqiyyət qazanmayan şəxsə yenidən ixtisas imtahanında iştirak etmək imkanı verilir. Habelə Vəkillər Kollegiyasına üzvlük haqqının vəkillik fəaliyyətinin dayandırıldığı dövrdə ödənilməməsi təklif edilir.

Əli Hüseynli, həmçinin İnzibati Xətalar Məcəlləsinə dəyişiklik edilməsi haqqında qanun layihəsini üçüncü oxunuşda təqdim edib. Bildirilib ki, Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinə təklif edilən dəyişikliyə uyğun olaraq reklam yerləşdirilməsi üçün nəzərdə tutulan ərazi 60 kvadratmetrdən az olduqda, tikintiyə icazə sənədinin alınmasına ehtiyac olmayacaq. Bu reklam qurğularının quraşdırılması və sökülməsi qaydası "Reklam haqqında" Qanuna təklif edilən dəyişikliyə uyğun olaraq müvafiq icra hakimiyyəti orqanı (Azərbaycan Respublikasının Prezidenti) tərəfindən müəyyən edilir. Habelə "Reklam haqqında" Qanuna təklif edilən dəyişikliyə əsasən reklama dair icazə özündə texniki şərtlər pasportunu da əks etdirir. Prosedur qaydaların sadələşdirilməsi məqsədilə icazə müqaviləsinin ləğvi təklif edilib. Müvafiq olaraq İnzibati Xətalar Məcəlləsində də dəyişikliklərin edilməsi təklif olunur.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə "Reklam haqqında" Qanuna dəyişiklik edilməsi barədə qanun layihəsini üçüncü oxunuşda təqdim edib. Qeyd olunub ki, təklif edilən dəyişikliklər reklam qurğularının tikintisinə, quraşdırılmasına və konstruktiv dəyişikliklərin aparılmasına icazənin verilməsi prosedurunun sadələşdirilməsi qaydalarını müəyyənləşdirir.

Gənclər və idman komitəsinin sədri Ülvi Quliyev "Gənclər siyasəti haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini üçüncü oxunuşda təqdim edib. Bildirilib ki, qanun layihəsinin zəruriliyini əsaslandıran iki fundamental hüquqi sənədin biri Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 7 iyul tarixli 1621 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə", digəri isə dövlət başçısının 2017-ci il 15 sentyabr tarixli 3236 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramlarının həyata keçirilməsi üzrə Tədbirlər planlarıdır. Gənclərlə iş sahəsində normativ hüquqi bazanın təkmilləşdirilməsi və gənclər siyasətinin həyata keçirilməsi səmərəliliyinin artırılmasını əhtiva edən bu iki sənədin müvafiq olaraq 6.1.1-ci və 5.11.1-ci yarımbəndləri ilə normativ hüquqi aktların gənclərlə bağlı müddəalarının təhlili və onların təkmilləşdirilməsinə dair təkliflərin hazırlanması tədbir kimi müəyyən edilib. Həmin tədbirlərin həyata keçirilməsi istiqamətində də "Gənclər siyasəti haqqında" Qanuna dəyişiklik edilməsi barədə qanun layihəsi hazırlanıb.

Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov Torpaq Məcəlləsində dəyişiklik edilməsi barədə qanun layihəsini şərh edib. Komitə sədri diqqətə çatdırıb ki, Azərbaycan Prezidentinin qanunvericilik təşəbbüsü qaydasında təqdim etdiyi qanun layihəsinə əsasən Məcəllənin 56-cı maddəsinə 10-cu bəndin əlavə edilməsi təklif olunur. Qanun layihəsi tikinti məqsədləri üçün torpaq sahəsinin ayrılması ilə bağlı müraciət etmiş şəxsə həmin torpaq sahəsində aparıla biləcək tikinti barədə əvvəlcədən xidmət haqqı ödəməklə rəy verilməsini nəzərdə tutur. Bu rəyin məqsədi torpaq sahəsində həyata keçirilməsi nəzərdə tutulan tikinti niyyətinin yerləşdiyi ərazinin şəhərsalma sənədlərinə uyğunluğunu müəyyən etməkdir. Nəticədə, torpaq sahəsini əldə edən şəxs orada hansı tikilini apara bilməsini proqnozlaşdıra biləcək, öz ehtiyaclarına uyğun torpaq sahəsini əldə etməsi imkanı yaranacaq, habelə gələcəkdə istədiyi tikilini həyata keçirmək problemi ilə qarşılaşması ehtimalı aradan qalxacaq.

Xidmət haqqının ödənilməsi halları, qaydası və məbləği qanun qüvvəyə mindikdən sonra müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq ediləcək.

Komitə sədri Ziyad Səmədzadə "Özəlləşdiriləcək dövlət əmlakının (müəssisələrinin) 2019-cu il 1 mart tarixinə mövcud olan əmlak və torpaq vergiləri üzrə borclarının tənzimlənməsi haqqında" Azərbaycan Respublikası qanununun layihəsi barədə məlumat verib. Bildirilib ki, qanun layihəsi Azərbaycan Prezidenti tərəfindən qanunvericilik təşəbbüsü qaydasında Milli Məclisə təqdim olunub. Dövlətimizin başçısının 2016-cı ildə imzaladığı dövlət əmlakının özəlləşdirilməsinin sürətləndirilməsi və idarə edilməsinin səmərəliliyinin artırılması ilə bağlı Fərmanından irəli gələn tapşırığa əsasən müvafiq qurumlar bu istiqamətdə lazımi addımlar atırlar. Təqdim olunan qanun layihəsi müəssisələrin borclarının silinməsi, onların səmərəli fəaliyyətinin bərpası üçün önəmli rol oynayır. Bu sənəd özəlləşdirilməsi nəzərdə tutulan 137 müəssisəni əhatə edir.

Qanun özəlləşdiriləcək dövlət müəssisələrinin sağlamlaşdırılması və onların borclarının tənzimlənməsi məqsədi daşıyır. Sənəddə deyilir ki, dövlət əmlakının (müəssisəsinin) satıcısı müvafiq icra hakimiyyəti orqanının müəyyənləşdirdiyi qurum ilə birlikdə özəlləşdirilməsi barədə qərar qəbul edilmiş dövlət əmlakının (müəssisəsinin) bu qanunun qüvvəyə minmə tarixinə olan əmlak və torpaq vergiləri üzrə borclarını dəqiqləşdirir. Özəlləşdirilən dövlət əmlakının (müəssisəsinin) qiymətləndirilməsi zamanı onun balans öhdəliklərində əks olunmuş debitor və kreditor borcları özəlləşdirmə planında ayrıca göstərilir.

Layihədə bu qanunun qüvvəyə minmə tarixindən sonrakı dövrdə özəlləşdirilməsi başa çatan dövlət əmlakının qanunun qüvvəyə minmə tarixinədək olan əmlak və torpaq vergiləri üzrə borclarının silinməsi qaydaları əks olunub. Qaydalara görə, dövlət əmlakının özəlləşdirildiyi vaxtdan etibarən bir il ərzində bu borcların 30 faizi ödənildikdə ödənilməmiş borcların 70 faizi, iki il ərzində 50 faizi ödənildikdə ödənilməmiş borcların 50 faizi, üç il ərzində 70 faizi ödənildikdə isə ödənilməmiş borcların 30 faizi silinir.

Milli Məclis sədrinin müavini, təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Valeh Ələsgərov "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini təqdim edib. Diqqətə çatdırılıb ki, qanun layihəsi xüsusi mühafizə olunan təbiət ərazilərinin yeni bir növünü - geoloji parkları müəyyən edir. Geoloji parklar dedikdə xüsusi geoloji, coğrafi, tarixi, estetik və digər əhəmiyyət daşıyan təbiət obyektlərinin yerləşdiyi ərazilər nəzərdə tutulur.

Deputatlar, həmçinin "Pasportlar haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə də baxıblar.

"Azərbaycan Respublikası diplomatik xidmət orqanlarının 100 illiyi (1919-2019)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi ikinci oxunuşda təqdim olunub. İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini ikinci oxunuşda təqdim edən Əli Hüseynli bildirib ki, dəyişikliklər "Daşınar əmlakın yüklülüyü haqqında" Azərbaycan Respublikasının 2017-ci il 2 may tarixli Qanununun icrası ilə əlaqədar təklif edilir. İclasda Mülki Prosessual Məcəllədə və "İpoteka haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi ikinci oxunuşda müzakirə edilib. Daha sonra "Telekommunikasiya haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi ikinci oxunuşda təqdim edilib. Bu qanun layihəsi telekommunikasiya operatoru (mülkiyyətində olan telekommunikasiya şəbəkəsi vasitəsilə qanuni əsaslarla telekommunikasiya xidmətləri göstərən hüquqi və fiziki şəxs) üçün yeni vəzifələrin müəyyən edilməsini nəzərdə tutur. Qanun layihələri müzakirə olunaraq qəbul edilib. Bununla da Milli Məclisin plenar iclası başa çatıb.

***Rəfiqə Kamalqızı***



# Əbülfəs Qarayev: "İslahatlar bundan sonra da davam etdiriləcək"

***Martın 5-də Mirzə Fətəli Axundzadə adına Milli Kitabxanada mədəniyyət naziri Əbülfəs Qarayev mətbuat konfransı keçirib.***

AZƏRTAC xəbər verir ki, mətbuat konfransı Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın martın 1-də mədəniyyət və incəsənət xadimlərinin bir qrupu ilə görüşdə müzakirə olunan məsələlərə həsr olunub. Tədbirdə Əbülfəs Qarayev son illər mədəniyyət sahəsində görülən işlər, aparılan islahatlar barədə geniş məlumat verib.

Mədəniyyət Nazirliyində həyata keçirilən islahatların uğurla davam etdirildiyini deyən nazir bildirib ki, Prezident İlham Əliyevin 2016-cı il martın 29-da imzaladığı Sərəncama uyğun olaraq 2017-ci ildən nazirliyin Bakı şəhəri üzrə baş idarəsi və 15 regional mədəniyyət idarəsi yaradılıb. Ölkə başçısının "Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin fəaliyyətinin təmin edilməsi haqqında" 2018-ci il iyunun 6-da imzaladığı Fərmana uyğun olaraq Mədəniyyət Nazirliyinin strukturu yenidən formalaşdırılıb.

Əbülfəs Qarayev Prezident İlham Əliyevin bu ilin yanvarın 15-də imzaladığı "Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin strukturunun və idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Fərmanın ölkəmizdə mədəniyyət sahəsinin müasir tələbələrə uyğun inkişafını təmin edilməsi baxımından müstəsna əhəmiyyətini qeyd edib. Vurğulayıb ki, Fərman mədəniyyət sahəsində müasir sistemin qurulmasını, mədəni xidmətlərin səviyyəsinin yüksəldilməsini, mədəniyyət müəssisələrinin fəaliyyətinin optimallaşdırılmasını nəzərdə tutur.

Nazir diqqətə çatdırıb ki, həyata keçirilən islahatlar zamanı beynəlxalq təcrübədən istifadə olunması istiqamətində də zəruri addımlar atılacaq. Biz xarici təcrübənin öyrənilməsi və ölkəmizdə tətbiq olunması istiqamətində Avropa İttifaqının "Tvinninq" layihəsini həyata keçirmişik. Qarşımızda duran əsas məsələlərdən biri də hazırda qabaqcıl beynəlxalq təcrübəni öyrənib ölkəmizdə tətbiqini davam etdirməkdir.

Qeyd edib ki, dövlət başçısı mədəniyyət sahəsində islahatların həyata keçirilməsini sistemli şəkildə istəyir. Son iki ildə kifayət qədər eksperimental da olsa, vacib işlərin görülməsinə nail olunub. Aparılacaq islahatlarda insan faktoru diqqətdə saxlanılacaq. İslahatların məqsədi kiminsə işdən çıxarılması, iş yerlərinin sayının azaldılması ilə bağlı deyil. Kim bu düşüncədədirsə, yanlış düşünür. İnsanların öz işlərini itirməsi, kimlərinsə işdən azad olunmasından söhbət gedə bilməz.

Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın martın 1-də mədəniyyət və incəsənət xadimlərinin bir qrupu ilə görüşünə toxunan Əbülfəs Qarayev bildirib ki, bu görüşlər cəmiyyətdə böyük əks-səda doğurub. Görüşdə mədəniyyət və incəsənətimizin müxtəlif sahələrinin inkişafı ilə bağlı fikirlər səsləndirilib. Qaldırılan məsələlərə dövlət başçısı tərəfindən dəstək ifadə olunub, müvafiq tapşırıqlar verilib. Prezident İlham Əliyevin son günlər "Azərbaycan teatrlarının inkişafı ilə bağlı əlavə tədbirlər haqqında", "Azərbaycan kinematoqrafiyasının inkişafı ilə bağlı bəzi tədbirlər haqqında" imzaladığı sərəncamlar mədəniyyət sahəsinə göstərilən diqqətin bariz nümunəsidir. Ə.Qarayev qeyd edib ki, islahatlar bundan sonra da davam etdiriləcək.

# Müharibə qapısının açılması Ermənistanın qapısını birdəfəlik bağlayacaq



***ATƏT-in Minsk Qrupu həmsədrlərinin Azərbaycana və Ermənistana səfərlərinin, münaqişənin həllinə yönələn fəaliyyətlərinin fonunda Ermənistan tərəfinin səsləndirdiyi uyğunsuz bəyanatlar diqqəti cəlb etməyə bilməz. Ermənistanın baş nazirinin bəyanatları heç də münaqişənin həlli üçün hesablanmadığı göz qabağındadır. Görünür, işğalçı tərəf yenə də pozucu mövqe tutmaq fikrindədir.***

İrana səfəri zamanı Ermənistanın baş naziri Nikol Paşinyan bildirib ki, Azərbaycan Prezidenti ilə görüş üçün gündəlik mövcud deyil. Bununla da, işğalçı dövlətin baş naziri yenə də məsələnin həllini uzatmağa ümid edir. Əslində, ermənilərin bu münaqişə ilə bağlı niyyətləri çoxdan bəlli idi və indi baş nazirin mövqeyi də bu niyyətin təzahürü kimi diqqəti cəlb edir.

Nikol Paşinyanın yenə də əvvəlki iddiasını irəli sürəcəyi ATƏT-in Minsk Qrupu həmsədrlərinin Azərbaycana və Ermənistana son səfərlərinin ardınca heç bir şəkildə gözlənilən deyildi. Bu beynəlxalq təşkilat tərəflərin münaqişə ilə bağlı razılığa gəlməsi üçün hər iki ölkəyə səfərlər etdiyi halda, işğalçı dövlətin baş nazirinin öz əvvəlki iddiasına, yəni Dağlıq Qarabağ danışıqlarının dəyərli tərəfi statusu iddiasına düşməsi heç də iddialılıq deyil, səriştəsizlik, bacarıqsızlıq və idarə etmədə naşılıqdır.

İşğalçı dövlətin baş naziri qeyd edir ki, Dağlıq Qarabağ danışıqlarının dəyərli tərəfi statusunu alacağı təqdirdə, danışıqlardan söhbət gedə bilər. Hətta fikrini əsaslandırmağa çalışaraq, onu da bildirib ki, "Mən "Qarabağ xalqını" təmsil etmirəm". Maraqlıdır, əvvəla, Paşinyan "Qarabağ xalqı" dedikdə kimləri nəzərdə tutur və ümumiyyətlə, belə bir xalq varmı? Digər tərəfdən, əgər baş nazir dediyi kimi, "Qarabağ xalqını" təmsil etmirsə, onda niyə atılıb-düşürdü ortaya? Bu qədər danışıqlara, müxtəlif formatlarda görüşlərə, rəsmi və qeyri-rəsmi danışıqlara niyə gedirdi? Bu görüşlərin onun üçün heç bir mahiyyəti yox idisə, deməli, həmin görüşlərdə iştirak etməsi formal xarakter daşıyıb və baş nazir biləbilə bu görüşlərə yalandan qatılıb. Yox, əgər formal xarakter daşımayıbsa və görüşlər Paşinyan üçün hansısa mahiyyət daşıyıbsa, onda bu son mövqeyi yenə də uyğunsuz hesab olunur. Məsələ burasındadır ki, üçüncü hal yoxdur və hər iki hal baş nazirin, qeyd etdiyimiz kimi, səriştəsizliyini, siyasi savadsızlığını, naşılığı və idarəetmə təcrübəsinin, diplomatik keyfiyyətlərinin olmamasını təsdiq edir.

## Ermənistan hökuməti, erməni lobbisi, ümumilikdə, erməni cəmiyyəti Dağlıq Qarabağ torpaqlarını saxlamaq gücündə deyil

Diqqətçəkən məqamlardan biri də odur ki, Paşinyanın İrana səfərinə paralel olaraq, Ermənistanın milli təhlükəsizlik xidmətinin direktoru Artuq Vanesyan Azərbaycanın işğal edilmiş ərazilərinə səfərini reallaşdırıb. A.Vanesyan öz səfəri çərçivəsində bəyan edib ki, "ərazilərin bir qarışının belə qaytarılmasından söhbət belə gedə bilməz". Baş nazirin İrana səfəri zamanı bəyan etdiyi fikirlərlə paralel olaraq, milli təhlükəsizlik xidmətinin direktorunun fikirləri heç də təsadüf hesab oluna bilməz. Sözsüz ki, bu fikirlər, bu bəyanatlar Ermənistan tərəfinin fikirləri, daha doğrusu, mövqeyidir.

Təbii ki, ermənilər torpaqların qaytarılmamasına çalışırlar və "Böyük Ermənistan" xülyası bu xalqın başını elə dumanlandırıb ki, başqalarına məxsus olanı ələ keçirmək niyyəti bunlar üçün ən adi hal hesab olunur. Yəni ermənilərin düşüncəsində işğal, qarət, zəbt kimi anlayış yoxdur və hansı yolla ələ keçirilməsindən asılı olmayaraq, müvəqqəti də olsa, əllərində nə varsa özününküləşdirməyə, geri qaytarmamağa çalışırlar. Amma artıq baş nazirdən tutmuş hər bir sıravi erməniyə qədər dərk etmək məcburiyyətindədir ki, Ermənistan hökuməti, erməni lobbisi, ümumilikdə, erməni cəmiyyəti Dağlıq Qarabağ torpaqlarını saxlamaq gücündə deyil və buna heç cür imkanı yoxdur.

## Müharibə qapısının açılması, sonda Ermənistanın məğlubiyyəti, hətta məhvi deməkdir

Heç şübhəsiz ki, Dağlıq Qarabağ münaqişəsi həll olunmalı, torpaqlarımız geri qaytarılmalı, erməni işğalı nəticəsində yurd-yuvalarından didərgin düşmüş məcburi köçkünlər onlara məxsus olan ərazilərə geri dönməlidirlər. Bu da, Azərbaycanın münaqişə başlayan andan dəyişməyən mövqeyi və haqlı tələbidir. Hansı yolla olur-olsun, istər hərb yolu, istərsə də sülh yolu ilə Azərbaycan öz torpaqlarını geri qaytaracaq və ermənilər özləri də çox yaxşı başa düşürlər ki, ölkəmizin buna qüdrəti çatır. Azərbaycan öz torpaqlarını güclə də olsa, müharibə yolu ilə də olsa, geri qaytarmaq əzmindədir. Bunu təkcə erməni cəmiyyəti deyil, bütün dünya ictimaiyyəti də yaxşı bilir və hətta etiraf da edir ki, ölkəmizin hərbi potensialı yetərincədir. Eyni zamanda, etiraf olunur ki, Ermənistanın olmayan hərbi potensialı ölkəmizin qüdrəti ilə müqaisə olunmayacaq səviyyədədir və heç müqayisə belə olunmur da.

Belə olan halda, Paşinyanın İrana səfəri çərçivəsində iddia ilə çıxış etməsi, Dağlıq Qarabağa səfər edən Artuq Vanesyanın ərazilərin bir qarışının belə qaytarılmayacağı barədə sərsəm fikirləri, faktiki olaraq, münaqişə ətrafında yaranmış müsbət atmosferin dağılması anlamına gəlir. Bütün bunlar isə, nəticə etibarilə müharibə qapısının açılması, sonda Ermənistanın məğlubiyyəti, hətta məhvi deməkdir. Bunu erməni siyasi şərhçilər də etiraf edirlər və bunlardan biri, Aram Amatuni yazır ki, İrəvan danışıqlar yolunu bağlayır və bununla da, müharibə qapısını açır.

## Ermənistan tərəfinin son bəyanatları sülhə nail olmağa xidmət etmir

Ermənistan tərəfi dərk etməli və unutmamalıdır ki, belə sərsəm bir mövqe bir zaman "aprel döyüşləri" kimi bir nəticəni ortaya qoydu. Ermənilər bundan yetərli bir dərs almalı idilər. Unutmamalı idilər ki, 25 il "Madrid prinsipləri" üzrə danışıqlara gedildiyi halda, niyə "aprel döyüşləri" baş verdi. Bu döyüşlər ermənilərə həqiqətləri dərk etmək üçün kifayət idi və işğalçılar bilməli idilər ki, bu döyüşlər bir də təkrarlana, Ermənistanın varlığı, movcudluğu belə sual altında qala bilər. Yəni danışıqlar yolunu bağlayan işğalçı tərəf müharibə qapısını açdığının fərqində olmalıdır və nəticə ilə də barışmaq məcburiyyətindədir. Çünki birmənalı şəkildə, qəbul etmək lazımdır ki, Ermənistan tərəfinin son bəyanatları sülhə nail olmağa xidmət etmir.

Təsadüfi deyil ki, Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Bakıda ATƏT-in fəaliyyətdə olan sədri, Slovakiyanın XİN rəhbəri Miroslav Layçak ilə görüşün yekunlarına dair keçirilən mətbuat konfransında bildirib ki, "Paris görüşündən sonra həmsədrlər pozitiv bəyanatla çıxış edirlər və xalqların sülhə hazırlanmalı olduqlarını bildirirlər. Amma erməni tərəfi buna inanmağı imkan vermir. Ona görə də, ATƏT sədrindən xahiş edirəm ki, İrəvanda olarkən, erməni tərəfindən soruşsun ki, biz xalqları sülhə, yoxsa başqa istiqamətdə hazırlamalıyıq?"

Sözsüz ki, Ermənistan sülh və danışıqlar yolunu seçmədiyi halda, müharibə ilə üz-üzə qalmalı, məğlubiyyətlə barışmalı olacaq. Daha doğrusu, sülhdən imtina müharibə deməkdir ki, bu da Ermənistana yükünü qaldıra bilməyəcək qədər ağır başa gələcək. İşğalçı dövləti tamamilə məhvə sürükləyəcək. Bir sözlə, müharibə qapısının açılması Ermənistanın qapısını birdəfəlik bağlayacaq.

***İnam HACIYEV***

# Prezident İlham Əliyevin qərarları bütün dünya üçün sosial inqilab nümunəsidir

## *Milli Məclisin deputatı Kamilə Əliyevanın yap.org.az-a müsahibəsi*

***- Kamilə xanım, cənab Prezident İlham Əliyevin vətəndaşlarımızın sosial rifah halının yüksəldilməsi üçün atdığı addımları, verdiyi qərarları necə dəyərləndirirsiniz?***

- Prezident İlham Əliyevin həyata keçirdiyi ardıcıl və düşünülmüş sosial-iqtisadi siyasət nəticəsində ölkəmizin davamlı inkişafı təmin edilib, ölkə iqtisadiyyatında qeyri-neft sektorunun çəkisi ciddi şəkildə artıb. İqtisadiyyatın modernləşdirilməsi, qeyri-neft sektorunun inkişafı ilə bağlı irimiqyaslı layihələrin reallaşdırılması nəticəsində yeni iş yerləri açılıb, əhalinin həyat səviyyəsi yüksəlib, məşğulluğu artıb, yoxsulluq azalıb.

Respublikamızda həyata keçirilən sosial siyasət insanların sosial xidmətlərə olan ehtiyaclarının ödənilməsinə yönəldilməklə təhsilin, elmin, səhiyyənin, mədəniyyətin, digər sosial-mədəni tədbirlərin inkişaf etdirilməsi və əhalinin sosial müdafiəsinin daha da gücləndirilməsi məqsədlərinə dövlət büdcəsindən hər il böyük məbləğdə vəsait ayrılır. Elə 2019-cu ilin dövlət büdcəsinin layihəsində büdcənin sosial yönümlülüyünün təmin edilməsi və bütün sosial proqramların icrası ilə bağlı qarşıya qoyulan vəzifələrin həllini tapması təsadüfi deyildir.

Ölkəmizdə insan amili, onun rifahı, məşğulluğun təmin olunması, yoxsulluğun və işsizliyin aradan qaldırılması, vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi dövlət siyasətinin prioritetlərindən biridir. Məhz bu kontekstdə Prezident İlham Əliyevin verdiyi qərarlar bütün dünya üçün nümunədir. Elə 12 min 200-dən çox şəhid ailəsinə dövlət tərəfindən 11 min manat ödənişin edilməsi, şəhid ailələrinin müavinətlərinin 242 manatdan 300 manata artırılması, Əfqanıstanda həlak olanların ailələrinə verilən müavinətin 220 manatdan 300 manata qaldırılması, minimum əməkhaqqının 38 faiz artırılması, 130 manatdan 180 manata çatdırılması, həmçinin, minimum pensiyaların məbləğinin də təxminən 38 faiz - 116 manatdan 160 manata qədər artırılması, eləcə də təqribən 100 minə yaxın tələbənin təqaüdünün qaldırılması cənab Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin mərkəzində insan amilinin olduğunu bir daha sübut etmiş olur.

Eyni zamanda, xüsusi olaraq diqqətə çatdırmaq istərdim ki, cənab Prezident İlham Əliyevin "Əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında" Sərəncamının ümumilikdə 576,8 min nəfərə yönələn sosial müavinətlər və Prezidentin aylıq təqaüdləri əhəmiyyətli dərəcədə artırılıb, eləcə də həmin təqaüdlərin əhatə dairəsi daha da genişləndirilməsi məqsədinə xidmət edib. Təsəvvür edin ki, edilən artımlar üçün cari ilin 9 ayı üçün əlavə olaraq 300 milyon manat, illik isə əlavə olaraq 400 milyon manat vəsait ayrılacaq.



***- Cənab Prezident İlham Əliyevin digər Sərəncamı ilə tələbələrin təqaüdləri də artırıldı. Tələbələrlə daim ünsiyyətdə olan bir professor kimi tələbələr üçün atılmış bu addıma münasibətiniz necədir?***

- Doğru qeyd edirsiniz. Cənab Prezident tərəfindən təqaüdlərin artırılmasına ilə bağlı Sərəncamı tək tələbələrin deyil, valideynlərin də sevincinə səbəb oldu. Amma təbii olaraq dövlət başçısının atdığı bu addımlar təsadüfi xarakter daşımır. Çünki cənab Prezident daim təhsilimizin inkişafı məsələsinə xüsusi önəm verib. Ona görə də, bu gün təhsil sahəsi Azərbaycanda prioritet sahələrdən biridir. Tələbələrə və gənclərə olan bu qayğı, haqqında danışdığımız sənədlərdə öz əksini tapdı. Təqaüdlərin artırılması yalnız bakalavr deyil, magistr, doktorantura təhsili alanlara, həmçinin orta ixtisas və peşə-ixtisas təhsili müəssisələrinin tələbələri və şagirdlərinə də şamil olundu.

Əlbəttə ki, ölkə başçısı tərəfindən imzalanan sənədlər tələbələrin təkcə sosial rifah halının yaxşılaşdırılmasına deyil, eləcə də təhsilin keyfiyyətinin yüksəlməsinə də xidmət edəcək. Atılan addımlar nəticəsində tələbələr arasında sağlam rəqabətin yaranmasına gətirib çıxaracaq. Bildiyiniz kimi təqaüdlər bal kriteriyalarına görə fərqlənəcək. Belə olan halda, artıq tələbələr yüksək təqaüd almaq üçün daha da üzərlərində çalışıb yüksək nəticələr əldə etməyə çalışacaqlar ki, bu da təhsilin keyfiyyətinə müsbət təsirini göstərəcək Bir sözlə ifadə etsək imzalanan sənədlər tələbələrimizin yüksək təhsil alması üçün bir stimul olacaq. Bunun nəticəsində tələbələrimizin həm sosial vəziyyəti daha da yaxşılaşacaq, həm də onlar valideynlərindən asılı olmayacaqlar.

Bütövlükdə, Azərbaycan Prezidentinin diqqət və qayğısı nəticəsində ölkəmizdə fəaliyyət göstərən təhsil ocaqları müasir standartlara uyğun şəkildə qurulacaq, lazımi maddi-texniki avadanlıqlarla təchiz olunub. Ölkəmizdə ödənişli ixtisaslarda təhsil alan şəhid ailələrinin ödənişdən azad olunması, Prezident təqaüdünün verilməsi, eləcə də digər addımlar Azərbaycanda təhsilə göstərilən böyük qayğının göstəricisidir .

***- Kamilə xanım, Azərbaycan vətəndaşlarının böyük sevincinə səbəb olmuş daha bir hadisə də problemli kreditlərlə bağlı oldu. Ekspertlərin fikrincə, fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı tədbirlərin görülməsi üçün dünyada analoqu olmayan bir qərar verən cənab Prezident İlham Əliyev sosial inqilab nümunəsi təqdim etmiş oldu. Sizin bu barədə fikirlərinizi bilmək istərdik...***

- Əlbəttə, çox düzgün qeyd edirsiniz ki, 800 mindən çox insanın böyük problemini həll edəcək fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı dünyada analoqu olmayan bir qərardır və sosial inqilab nümunəsidir. Çünki, qlobal iqtisadi və maliyyə böhranı, bununla əlaqədar enerji resurslarının qiymətinin kəskin aşağı düşməsi Azərbaycan iqtisadiyyatına öz təsirləri göstərmiş, nəticədə əhalinin müəyyən qrupunun ödəmə qabiliyyəti zəifləmiş, xarici valyutada borc almış vətəndaşların banklar qarşısında öhdəlikləri artmış, bu məsələ ilə bağlı məhkəmə müstəvisində baxılma halları çoxalmışdı. Təsadüfi deyil ki, Azərbaycanda manatın məzənnəsinin devalvasiyasından sonra cəmiyyətdə müzakirə olunan məsələlərdən biri də əhalinin xarici valyutada kreditləri ilə bağlı idi. Lakin qısa müddətdə həyata keçirilən sürətli iqtisadi islahatlar, eyni zamanda, enerji resurslarının ixracından asılılığın azaldılması, qeyri-neft sektorunun inkişafının prioritet seçilməsi Azərbaycan iqtisadiyyatını xarici amillərin təsirini azaldıb, iqtisadi artım tempinin bərpa edilməsinə imkan yaradıb. Məsələ burasındadır ki, son dövrdə respublikada makroiqtisadi sabitliyin təmin olunması, iqtisadi inkişaf templərinin bərpa edilərək artması və maliyyə imkanlarının genişlənməsi digər sahələr kimi, əhalinin xarici valyutada olan ödəmə vaxtı keçmiş kredit borclarının ödənilməsinə də dövlət dəstəyinin göstərilməsi üçün münbit şərait yaradıb.

Nəticədə problemin optimal həlli yollarını tapmaq, bu məsələnin əhali və dövlət büdcəsi üçün ən əlverişli variantda aradan qaldırmaq məqsədilə 2018-ci ildən ictimai müzakirələr təşkil olunmağa başlamış və Azərbaycan Prezidentinin tapşırığına əsasən, hökumət bu istiqamətdə fəal iş aparmış və təkliflər hazırlamışdı. Paralel olaraq məsələnin Milli Məclisdə müzakirəsi təşkil edilmiş, müxtəlif təkliflər irəli sürülmüşdü. Bununla da Fərmana görə, fiziki şəxslərin banklara 10 000 ABŞ dollarınadək xarici valyutada olan əsas kredit borclarının devalvasiya ilə bağlı manatla artmış hissəsi 2015-ci il fevralın 21-nə xarici valyutada mövcud olan əsas kredit borcuna münasibətdə 1 ABŞ dollarına 0,25 manat, 2015-ci il fevralın 22-dən həmin il dekabrın 21-dək bağlanmış kredit müqavilələri üzrə xarici valyutada əsas kredit borcuna münasibətdə 1 ABŞ dollarına 0,6 manat nəzərdə tutulmaqla dövlət büdcəsinin vəsaiti hesabına üç aydan gec olmayaraq manatla ödəniləcək.

Fərmana əsasən, ödəniş ilk növbədə fiziki şəxslərin banklar və ləğvetmə prosesində olan banklar qarşısında ödəniş müddəti keçmiş əsas kredit borclarının ödənilməsinə yönəldilməsi, qalan məbləğin isə həmin fiziki şəxslərin sərəncamına verilməsi nəzərdə tutulub. Lakin bir fiziki şəxsə ödəniləcək vəsaitin ümumi məbləği 5 000 ABŞ dollarının manat ekvivalentindən çox olmayacaq. Fərmanda, eyni zamanda, ödəniş müddəti 360 günü keçən, kreditin məbləği dollarla 10 min dollara, manatla isə 17 min manata qədərdirsə, bunun üçün də mexanizm nəzərdə tutulub. Bu mexanizmə görə, banklar əhaliyə 5 ilə qədər, 1 ili güzəştli olmaqla illik 1 faiz olmaqla yeni kredit müqaviləsinin bağlanılmasını təklif edəcəklər. Bu məqsədlə banklara fevralın 28-nə qədər həmin kreditlər üzrə hesablanmış və ödənilməmiş faizlər, dəbbə pulları, cərimələr varsa, onların silinməsi üzrə tədbirlər görüləcək. Eyni zamanda, banklarla borcalanlar arasında hansısa məhkəmə mübahisələri varsa, məhkəmə işləri gedirsə, hətta məhkəmə prosesi tamamlanıb və qərarlar icraya yönəldilibsə, bütün bu işlər geri çağırılacaq, dayandırılacaq. Əhalinin üzərində olan məhkəmə qərarları, icraları aradan götürüləcək. Fərmanla banklara bu barədə tövsiyə verilib.

Bir sözlə, problemli kreditlərin həlli Azərbaycan hakimiyyətinin ciddi sosial təşəbbüsüdür və vətəndaşların rifah halını daha da yüksəltmək, onların maliyyə yükünü azaltmaq, dünya bazarında neftin qiymətinin 3-4 dəfə azalması ilə bağlı baş vermiş devalvasiya nəticəsində fiziki şəxslərin xarici valyutada olan kreditləri üzrə onların üzləşdiyi maliyyə itkisini qarşılamaq məqsədi daşıyır. Məlumdur ki, bəzi ölkələrdə də bu kimi təşəbbüslər irəli sürülmüş, lakin son nəticədə onun həlli dövlətin imkanları üçün ciddi problem yaratdığına görə, onun həlli ya təxirə salınmış, yaxud da bəlli olmayan müddətə uzadılıb.

Gördüyünüz kimi, 2019-cu ilin əvvəlindən sosial sahədə qəbul olunmuş qərarlar, o cümlədən də problemli kreditlərin həlli öz miqyasına, əhatə dairəsinə görə sözün əsl mənasında inqilabi qərarlardır. Bir sözlə, Prezident İlham Əliyevin qərarları bütün dünya üçün sosial inqilab nümunəsidir.

## Leyla Abdullayeva: "Azərbaycan ilə münasibətləri normallaşdırmadan Ermənistan heç vaxt tam müstəqil olmayacaq"



Azərbaycan Xarici İşlər Nazirliyinin Mətbuat katibi Leyla Abdullayeva Ermənistan Baş naziri Nikol Paşinyanın Avropa Parlamentinin Xarici Əlaqələr Komitəsində çıxışı zamanı səsləndirdiyi fikirlərə münasibət bildirib. Verilən şərhdə deyilir: "Avropa Parlamentində çıxışı zamanı Dağlıq Qarabağın gələcəyini orada yaşayan insanların müəyyən etməli olduğunu və Dağlıq Qarabağı təmsil etmədiyini iddia edən Ermənistan Baş nazirinə belə bir sual ünvanlamaq istərdim. Əgər belədirsə, o zaman Ermənistan vətəndaşı olan gənclərin digər ölkənin torpağında, yəni Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində nə işi var? Nə səbəbdən bu gənc insanlar öz həyatlarını itirməli olurlar?

Ermənistan Baş nazirinin bu kimi əsassız bəyanatları nəinki beynəlxalq ictimaiyyəti, eyni zamanda Ermənistanda, Azərbaycanın Dağlıq Qarabağ bölgəsində, eləcə də dünyada yaşayan erməniləri aldatmaqdan başqa bir şey deyildir".

Mətbuat katibi bildirib ki, bölgənin "yeni şəkildə dialoq, sülh şəraitində birgə yaşama və iqtisadi əməkdaşlığa ehtiyacı var" fikrini səsləndirən Ermənistan rəsmisi əgər bu bəyanatını səmimiyyətlə söyləyirsə, sadaladıqlarına nail olmağın yeganə yolunun Azərbaycanın işğal olunmuş ərazilərindən Ermənistan silahlı qüvvələrinin çıxarılması və azərbaycanlı məcburi köçkünlərin bu ərazilərə geri dönməsindən ibarət olduğunu dərk etməlidir. L.Abdullayevanın sözlərinə görə, Ermənistan rəhbərliyi anlamalıdır ki, Azərbaycan ilə münasibətləri normallaşdırmadan Ermənistan heç vaxt tam müstəqil olmayacaqdır: "Demokratik yolla seçildiyini bəyan edən Ermənistan rəhbərliyi ən azından özü və xalqı qarşısında vicdanlı davranmalı və Azərbaycan ərazilərinin işğalından və əhalinin etnik təmizlənməsindən Ermənistanın və erməni xalqının nə qazandığı sualına cavab verməlidir. Bu çox sadə cavabı mən səsləndirməyəcəm, onu Ermənistan rəhbərliyindən eşitmək istərdim".

# Yaddaşlara həkk olunan sənətkar

## *Dövlət başçısının Sərəncamı ilə Hüseynqulu Sarabskinin 140 illik yubileyi qeyd olunacaq*

***XX əsr Azərbaycan milli musiqi mədəniyyətinin parlaq şəxsiyyətləri sırasında öz yeri və mövqeyi olan sənətkar Hüseynqulu Sarabskinin 140 illik yubileyidir. Adı əsrin yeniləşən, dəyişən, müasirləşən sənət aləminin simvollarından birinə çevrilən, əsrin səsinə səs verən, tarixi yaradan sənət fədailərindən biri olan Hüseynqulu Sarabski səhnəmizin əfsanəvi Məcnunu kimi şöhrətlənmişdir.***

Sənətini musiqi incisi - "Leyli və Məcnun" zirvəsindən başlayan H.Sarabski bütün ömrünü bu zirvənin məsuliyyətini, onun ucalığını dərk edərək yaşamış, sənətinə - peşəsinə vurğunluğu ilə nəsillərə nümunə olmuş və zaman-zaman da olacaqdır. H.Sarabski təkcə böyük aktyor, xanəndə, teatr xadimi, rejissor, pedaqoq deyil, həm də bir şəxsiyyət olaraq tarixə iz salmışdır. Belə bir sənətkarın, görkəmli opera müğənnisi, aktyor, rejissor, pedaqoq və teatr xadimi, xalq artisti Hüseynqulu Sarabskinin anadan olmasının 140 illiyi tamam olur. Hüseynqulu Sarabskinin 140 illiyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidenti Sərəncam imzalayıb. 1879-cu ilin mart ayında anadan olan H.Sarabski Azərbaycanın teatr və musiqi mədəniyyətinin böyük nümayəndələri sırasında layiqli yer tutan tanınmış şəxsiyyətlərdəndir. Sərəncamda qeyd olunur ki, Şərqlə Qərbin musiqili teatr ənənələrinin qovuşuğunda meydana gəlmiş və dünya opera sənətinin unikal hadisəsinə çevrilmiş muğam operasının təşəkkülündə onun ifaçı kimi müstəsna xidmətləri vardır. Muğamları dərindən bilən, parlaq aktyorluq istedadına malik sənətkar milli opera və operettalarda əsas partiyaların ilk və unudulmaz ifaçısı olmuş, uzunmüddətli doluğun səhnə fəaliyyəti ərzində rəngarəng obrazlar qalereyası yaratmışdır. Onun həyatı maraqlı bir filmin süjetidir. Taleyi də, sənət yolu da, daxilən bütöv, mətin, qarşısına qoyduğu məqsədə gedən yolda hər cür maneələri dəf edən, ən əsası isə sevdiyi işinə-peşəsinə vurğunluğunu ömrünün son anınadək saxlayan böyük bir aktyorun və şəxsiyyətin həyat tarixçəsidir. İlk sənət məhəbbətinə, o, son nəfəsində də sadiq qaldı.

Uşaqlıqdan musiqiyə böyük həvəsi və yaxşı səsi ilə seçilirdi. Özünün xatirələrində yazdığı kimi, "Məhərrəmlik vaxtında dini havalar oxuyar, mərsiyə deyər, münacat çəkər, eyni zamanda, el şənliklərində, toyda-bayramda muğamlara, mahnılara qulaq asar, öyrənərdi". 12 yaşlı Hüseynqulu ilk dəfə teatr tamaşasına baxır. Həmin tamaşa həvəskarların ifasında "Xan Sarabi" adı ilə qoyulmuş Mirzə Fətəli Axundzadənin "Sərgüzəşti-veziri-xani-Lənkəran" komediyası idi. Əsl soyadı Rzayev olan Hüseynqulunun sonralar götürdüyü səhnə təxəllüsü Sarabski də bu güclü təəssüratın əks-sədası oldu. Elə həmin gündən teatr və musiqi onun arzu və xəyallarında qoşalaşdı. Azərbaycanda milli dramaturgiyanın əsasını qoymuş Mirzə Fətəli Axundzadənin əsəri Azərbaycanın ilk opera artistinin taleyində rəmzi bir məna alaraq, onu əbədiləşdirən ada təkan verdi.



H.Sarabski teatra çətin bir dönəmdə gəlmişdi. Teatrı "şeytan əməli", aktyorluğu isə "kişiyə yaraşmaz peşə" hesab edənlərin tənəsinə, bəzən də hədə-qorxusuna sinə gərərək, öz arzuları və xəyallarına doğru inamla gedirdi. Kiçik yaşlarından ağır zəhmətə qatlaşan, ağır fiziki işlərdən də çəkinməyən, dəmirçi, daşyonan, fəhlə işləyən Hüseynqulu, yeni əsrin səsini eşidirdi. O, oxumaq, təhsil almaq istəyi ilə özünü oda-közə vurur, qazandığını kitabadəftərə verirdi. H.Sarabski ziyalı, müəllim, təhsilli insanları özünə nümunə seçirdi və onlara bənzəmək istəyirdi. İlk dəfə gördüyü teatr tamaşası isə onun həyat seçimini bircə an içində dəqiqləşdirdi. Səhnəyə o, ilk baxışdan və birdəfəlik vuruldu. Səhnə onun əbədi məhəbbətinə çevrildi. Bu məhəbbət qarşılıqlı oldu. H.Sarabskinin teatra gəlməsində, aktyorluq sənətini seçməsində, püxtələşməsində teatr xadimlərindən, tanınmış ziyalılardan Nəriman Nərimanovun, Əbdürrəhim bəy Haqverdiyevin, Rəhim bəy Məlikovun, həmkarları - Hüseyn Ərəblinskinin, Cahangir Zeynalovun və başqalarının böyük rolu olmuşdur.

İlk dəfə 1902-ci ildə Nəriman Nərimanovun "Dilin bəlası" pyesində Rəsul rolunda çıxış edən Hüseynqulu Sarabski sonralar teatr səhnəsində Mirzə Fətəli Axundzadənin, Şeyx Şamilin, Nəcəf bəy Vəzirovun, Əbdülrəhim bəy Haqverdiyevin dram əsərlərində bir sıra müxtəlif xarakterli rollar oynayır. O, yalnız milli repertuarda deyil, Azərbaycan dilinə tərcümədə Şekspirin, Heynenin, Şillerin, Qoqolun əsərlərində də müvafiq rollarda çıxış edirdi. Məhz Henrix Heynenin "Əlmənsur" pyesində ərəb səyyahının rolunda çıxış edərkən, oxuduğu təsiredici "Hicaz" muğamı onu Azərbaycan mədəniyyətinin yeni bir aləminə - musiqili-teatra-operaya gətirdi. Məhz bu tamaşa zamanı H.Sarabski o zamanlar Azərbaycanın və Şərqin ilk operası olan "Leyli və Məcnun" üzərində işləyən Üzeyir bəy Hacıbəylinin diqqətini cəlb etdi. Bu, zirvəyə gedən yolun başlanğıcı oldu. Səhnədə yaşadığı 30 ildən artıq bir müddətdə H.Sarabski 400 dəfə bu rolun sehrini yaşadı və yaratdı. Azərbaycan səhnəsinin əfsanəvi, təkrarolunmaz Məcnunu kimi tanındı. Əziz Şərifin Sarabskinin Məcnunu haqda yazdıqları bu gün bizlər üçün sənədli yazı qədər qiymətli və canlıdır: "Sarabskinin oyunu misilsiz idi. Onun nəğmələri bulaq kimi axır... Ağlaya-ağlaya, inildəyə-inildəyə öz məhəbbətindən, öz Leylisindən Füzulinin qəzəlləri ilə ölməz muğam üstündə danışır, insan qəlbinin ən incə damarlarına işləyən musiqi mənə o qədər təsir edirdi ki, hönkürtümü çətin boğa bilirdim. Lakin göz yaşlarım durmadan axırdı. Qəlbimi isə qəribə hisslər doldururdu. Zavallı, uğursuz, divanə Məcnun! Sarabski öz rolunu böyük məharətlə oynadı. O, Məcnun surətini səhnədə tam mənası ilə canlandırdı".

Dünya opera sənətinin unikal bir səhifəsi olan Şərqin və Qərbin musiqi teatr ənənələrinin kəsişdiyi muğam operasının tarixini H.Sarabskisiz təsəvvür etmək mümkün deyil. Hər bir obraz üçün Hüseynqulu Sarabski təravətli və fərqli boyalar tapırdı. Şah İsmayılı oynayanda məğrurluğu, əzəməti ilə tamaşaçıları riqqətə gətirirdi, Kərəm obrazını yaradanda yandırıb-yaxırdı. Azərbaycan musiqi sənəti tarixində öz yeri olan H.Sarabski sənət yolunu şaxəli bir tərzdə davam etdirərək, bir tərəfdən teatrda böyük sənət məbədində uğurlu tamaşalara imza atırdı, digər tərəfdən isə, səsləndirdiyi muğamları ilə Azərbaycanın çoxəsirlik sənət nümunələrini geniş bir şəkildə xalqa təqdim edirdi. Azərbaycan muğam sənətinin inkişafında və onun bir xətt üzrə dinamikliyinin qorunub-saxlanılmasında H.Sarabskinin rolu müstəsna olmuşdur. Sənətdə və səhnədə tələbkarlığı ilə seçilən aktyor, neçə-neçə əsərlərin müəllifi olaraq, öz möhrünü vurmuş və ondan sonra gələn ifaçılar üçün bir məktəb rolunu oynamış, bu gün də yaradıcılıq nümunələri öz dəyər və mahiyyətini yüksək bir səviyyədə təqdim edir.

Sözsüz ki, 110 ildən artıq tarixə malik olan "Leyli və Məcnun" operasının bütün məcnunları, məhz H.Sarabski məktəbindən bəhrələnərək, onun ifaçılıq tərzini özlərinə bir nümunə seçmiş, dəsti-xəttləri ilə yeni nəfəs, yeni ab-hava gətirmişlər. Bu obrazın təməl daşını qoyan H.Sarabskiyə qədər Azərbaycan teatr səhnəsində Məcnunu yaradan bir aktyor olsa da, ilk növbədə, qeyri-ixtiyari onun adı bu partiyanın sənət yolunda xatırlanır. Dövrün, zamanın sınaqlarında heç bir qorxu və həyəcan hiss etmədən səhnəyə çıxaraq, çox uğurlu bir obrazı tamaşaçılara təqdim edən aktyor iki böyük sənətkarın yaradıcılıq qüdrətindən yaranmış operanın xırdalıqlarına qədər tamaşaçısına təqdim etmək bacarığına malik oldu. Qeyd edək ki, H.Sarabskinin ifaçılıq sənəti ilə yanaşı, onun təşkilatçılıq işləri də Azərbaycan musiqi mədəniyyətinə böyük töhfələr vermişdir. Belə ki, milli mədəniyyətimizin inkişafı naminə çalışan xanəndə 1932-ci ildə Respublika Xalq Yaradıcılıq Evinin yaradılmasında böyük rol oynamışdır. 1932-ci ildə ona respublikanın xalq artisti adı verilmişdir. Çox təəssüf ki, belə bir sənətkarın lent yazıları günümüzə qədər gəlib çatmamışdır. Onun ifa etdiyi muğam sənət nümunələri qramafonlara yazılmamış, yalnız Opera Teatrındakı çıxışları lentə köçürülmüş xalqa təqdim edilir. Onun ömrü zamanla ötüşməyən bir tarixdə öz əksini tapıb. Qeyd edək ki, "Üzeyir ömrü" filmində onun "Leyli və Məcnun" operasında oynadığı obrazın müəyyən kadrları öz əksini tapmışdır. Belə aktyor sənət tariximizdə zaman-zaman yaşamış və illər ötdükcə də yaddaşlardan silinməyərək, sənət ömrünü davam etdirəcəkdir.

***Zümrüd BAYRAMOVA***

## Miroslav Layçak: ATƏT Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üçün bütün gücünü səfərbər etməlidir



ATƏT Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üçün bütün gücünü səfərbər etməlidir.

Bunu Slovakiyanın xarici işlər naziri və ATƏT-in fəaliyyətdə olan sədri Miroslav Layçak dünən Bakıda keçirilən mətbuat konfransında deyib. M.Layçak bildirib: "Bizim fəaliyyətimizin əsas istiqaməti - insanlar, sabitlik, dialoqdur və biz bütün gücümüzü bu istiqamətdə səfərbər edəcəyik". ATƏT sədri qeyd edib ki, Bakıda keçirdiyi görüşlər zamanı müxtəlif məsələlər, o cümlədən Dağlıq Qarabağ münaqişəsinin nizamlanması müzakirə olunub: "Gələn həftə, Yerevana səfərim zamanı bu müzakirələri davam etdirəcəyik və münaqişənin nizamlanması yollarını axtarmağa davam edəcəyik". M.Layçak vurğulayıb ki, Slovakiyanın Bakıda səfirliyinin açılması planlaşdırılır, bu da iki ölkə arasında münasibətlərin genişləndirilməsinə kömək edəcək.

## Ermənistanda 10 min nəfər dövlət qulluqçusu işsiz qalacaq




Ermənistanda hökumətin struktur islahatları nəticəsində 10 min nəfər dövlət qulluqçusu işsiz qalacaq. AZƏRTAC erməni KİV-lərinə istinadla xəbər verir ki, Paşinyan hökumətinin "hökumət strukturlarının optimallaşdırılması" adı altında həyata keçirdiyi islahatlar çərçivəsində nazirlik və idarələrdə geniş ixtisarlar nəzərdə tutulur. Belə ki, hazırda fəaliyyət göstərən 17 nazirlikdən cəmi 12-si qalacaq. Əhali arasında narazılığın artdığını görən Ermənistanın iqtisadi inkişaf və sərmayələr naziri Tiqran Xaçatryan parlamentdəki çıxışında bildirib ki, hökumət hələ bu məsələ ilə bağlı yekun qərar qəbul etməyib. Onun sözlərinə görə, ixtisar ediləcək dövlət qulluqçularının sayı isə "sonrakı məsələdir".

Ermənistan parlamentinin insan hüquqları və ictimai məsələlər komissiyasının sədri Naira Zoqrabyan bəyan edib ki, hökumətin iddia etdiyi kimi, 10 min insanın işsiz qalmasını ölkə maraqları ilə izah etmək ağlasığmazdır. "Mən heç cür anlaya bilmirəm ki, işsizliyin artması ölkə maraqlarına necə uyğun gələ bilər. Hökumət bu iddiasını cəmiyyətə izah etməlidir", -deyə deputat vurğulayıb.

## Əfsanəvi Tomas Andersin Heydər Əliyev Mərkəzində konserti olacaq

Mayın 7-də Heydər Əliyev Mərkəzində dünya pop musiqisinin əfsanəsi, məşhur "Modern Talking" qrupunun solisti olmuş Tomas Andersin konserti keçiriləcək. "Musiqi centlmeni - Tomas Anders" ("Thomas Anders - The Gentlemen of Music") adlı konsert proqramında müğənni tamaşaçılara ən sevilən mahnılarını, ötən illərin məşhur hitlərini səsləndirəcək.




Tomas Anders (Bernd Vaydunq) ötən əsrin 80-90-cı illərində "Modern Talking" qrupunun solisti olarkən məşhurluq qazanıb və artıq 40 ilə yaxındır ki, şöhrətin zirvəsindədir.

"You're My Heart, You're My Soul" ("Sən mənim qəlbimsən, sən mənim ruhumsan") sinqlı 81 ölkədə birinci olub. "Modern Talking" qrupu fəaliyyətini dayandırdıqdan sonra Tomas Anders solo karyerasını davam etdirib.

"Modern Talking" və Tomas Andersin solo musiqi albomlarının satışları dünya üzrə 125 milyonu ötüb. Müğənni 420-dən çox qızıl, platin plastinka və çoxsaylı mükafatlar qazanıb. Heydər Əliyev Mərkəzində keçiriləcək konsertə biletlərin qiyməti 40, 50, 60, 80, 100, 120, 150 və 200 AZN-dir. Biletləri Heydər Əliyev Mərkəzinin kassasından, iTicket.az saytı və satış məntəqələrindən əldə etmək olar.

## Sədaqət Vəliyeva: "Problemli kreditlərin həlli ilə bağlı qərar dövlətin vətəndaşlarına yüksək diqqət və qayğısının növbəti təzahürü oldu"



"Problemli kreditlər məsələsi 2015-ci ildən güclənən qlobal miqyaslı maliyyə-iqtisadi böhranın nəticəsi olaraq meydana çıxmışdı. Ölkəmizdə baş vermiş iki devalvasiyanın yekunu olaraq, dollar manatın məzənnəsinə nisbətdə yüksəldi və banklardan dollarla kredit götürmüş vətəndaşların ödəmə qabiliyyətinə zərbə vurdu. Amma belə bir proses təkcə Azərbaycanda deyil, dünyanın əksər ölkələrində də müşahidə edildi". Bu fikirləri Yeni Azərbaycan Partiyasının Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyeva "Səs" qəzetinə açıqlamasında bildirib.

Deputat bildirib ki, ötən müddət ərzində, vətəndaşlarla görüşlərdə bu problem qaldırılmış, insanların müraciətləri təhlil edilərək, müvafiq qurumlara təkliflər göndərilmiş, hətta Milli Məclisin plenar iclaslarında dəfələrlə səsləndirilmişdi: "Yəni gördüyünüz kimi, bu problem haqqında dövlət məlumatlı olub. Deyərdim ki, hökumət bu problemin aradan qaldırılması və vətəndaşların dollar kreditləri ilə bağlı yaşadığı çətinlikləri daha tez aradan qaldırmaq niyyətində idi. Amma bilirsiniz ki, hər bir sosial qərarın arxasında ciddi maliyyə resursu dayanır. Təsadüfi deyil ki, böhranın nəticələrinə baxmayaraq, Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə reallaşdırılan iqtisadi islahatlar tez bir zamanda səmərəsini verdi və dövlətimizin inkişafı dinamikləşdirildi və maliyyə imkanlarımız artdı. Məhz buna görə də, 2019-cu ilin dövlət büdcəsi müzakirə edilərkən problemli kreditlər məsələsinin həlli, eləcə də, cari ilə nəzərdə tutulmuş sosial proqramların maliyyələşdirilməsi haqqında ciddi müzakirələr aparıldı, təkliflər irəli sürüldü. Eyni zamanda, Cənab Prezident bu il yanvar ayının 11-də keçirilmiş Nazirlər Kabinetinin iclasında reallaşdırılacaq islahatlar, hətta perspektiv sosial tədbirlər haqqında da cəmiyyətimizi məlumatlandırmışdı. Məhz ötən 2 ay ərzində, dövlət başçısının təqribən 3 milyon insanı əhatə edən və maliyyə tutumu təxminən 2.2 milyard manat olan sərəncamları, fərmanları imzalaması, qərarları verməsi sırf Azərbaycan xalqının yaşayış və rifah halının daha da yüksəldilməsi məqsədinə xidmət edir. Elə problemli kreditlərin həlli ilə bağlı qərar da dövlətin vətəndaşlarına yüksək diqqət və qayğısının növbəti təzahürü oldu. 800 mindən çox insanı əhatə edən Prezident Fərmanı dünyada analoqu olmayan bir qərar idi".

Sədaqət Vəliyeva əlavə edib ki, 2019-cu ilin əvvəlindən sosial sahədə qəbul olunmuş qərarlar, o cümlədən də, problemli kreditlərin həlli öz miqyasına, əhatə dairəsinə görə, sözün əsl mənasında, inqilabi qərarlardır və Prezident İlham Əliyevin verdiyi bu qərarlar bütün dünya üçün sosial inqilab nümunəsidir.

*Nəzakət ƏLƏDDİNQIZI*

## Nəsimi rayonunda Novruz yarmarkası yaradılıb

*Sakinlər yeni ünvandakı satış yarmarkasına dəvət olunurlar*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığı ilə paytaxtda 14 ünvanda və ölkənin bütün şəhər və rayon mərkəzlərində martın 2-dən etibarən hər həftənin şənbə və bazar günləri, martın 16-dan 21-dək isə hər gün Novruz yarmarkaları keçiriləcək. Bu barədə Bakı Şəhər İcra Hakimiyyəti məlumat verir. Qeyd olunur ki, bununla əlaqədar Azərbaycan Respublikası Prezidenti Administrasiyasının təşkilatçılığı ilə Bakı Şəhər İcra Hakimiyyəti və Kənd Təsərrüfatı Nazirliyi ilə birgə, əhalinin tələbatı nəzərə alınaraq, Novruz bayramı ərəfəsində paytaxtın bütün rayonlarında kənd təsərrüfatı məhsulları yarmarkaları yaradılıb.

Daxil olan məlumatda, o da bildirilir ki, artıq bu gündən etibarən, paytaxtın Nəsimi rayonunda yaradılan satış yarmarkası Seyid Cəfər Pişəvari küçəsi 2A, ("Agro Mall", 3-cü mikrorayon dairəsinin yaxınlığı) ünvanında fəaliyyət göstərəcəkdir. Belə ki, hər cür şəraitə malik olan bu yarmarkada respublikamızın müxtəlif bölgələrindən fermerlər, ailə təsərrüfatları əhaliyə geniş çeşiddə kənd təsərrüfatı məhsullarını bazar qiymətlərindən xeyli ucuz təklif edəcəklər. Burada məhsulların keyfiyyətinə və qiymətlərinə müvafiq qurumlar tərəfindən nəzarət olunacaqdır. O cümlədən, sakinlər yeni ünvandakı satış yarmarkasına dəvət olunurlar.

*Rövşən RƏSULOV*

## YAP Cəbrayıl rayon təşkilatında tədbir keçirilib



YAP Cəbrayıl rayon təşkilatında ərazi ilk partiya təşkilat sədrləri və partiya fəallarının iştirakı ilə tədbir keçirilib. Tədbirdə çıxış edən YAP Cəbrayıl rayon təşkilatının sədri Arif Fərzəliyev Yeni Azərbaycan Partiyasının keçdiyi



şərəfli tarixi yola nəzər salaraq, xalqa, vətənə, dövlətçiliyə xidmət edən Yeni Azərbaycan Partiyasının, Ümummilli Lider Heydər Əliyev ideyalarına əsaslanaraq, dövlətçiliyimizin möhkəmlənməsinə və dinamik inkişafına öz töhfələrini verdiyini diqqətə çatdırıb. Qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin həyata keçirdiyi siyasət ölkəmizə böyük nüfuz qazandırıb və Azərbaycan regionun lider dövlətinə çevrilib.

Rayon təşkilatının sədri A.Fərzəliyev YAP Sədrinin müavini, Baş nazirin müavini, İcra katibi Əli Əhmədovun sədrliyi ilə bu günlərdə keçirilən geniş müşavirəyə nəzər salaraq, onun giriş nitqindəki tövsiyə və tapşırıqlarını diqqətə çəkib. Qeyd edib ki, müşavirədə vurğulandığı kimi, 2019-cu ilin başlanğıcından etibarən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sosial sfera ilə bağlı əhəmiyyətli sərəncamlar imzalayıb. Bu sərəncamlar əsasında insanların sosial həyatının yaxşılaşdırılması ilə əlaqədar çox ciddi tədbirlər görülüb: "Eləcə də, minimum pensiyanın artırılması, müxtəlif müavinətlərin, tələbələrin təqaüdünün, məcburi köçkünlər üçün aylıq müavinətlərin artırılması, şəhid ailələrinə qayğı, problemli kreditlərin həlli və s. addımlar çox vacib sosial proqramlardır. Bütün bunların hamısı Azərbaycan dövlətinin sosialyönümlü fəaliyyətinin mahiyyətini ifadə edir və dövlətin siyasətinin mərkəzində vətəndaş amilinin dayandığını göstərir".

Tədbirdə A.Fərzəliyev ərazi ilk partiya təşkilatlarının sədrlərinə ölkə Prezidentinin bu möhtəşəm sərəncamlarının mahiyyətinin geniş ictimaiyyətə çatdırılmasını tövsiyə edib.

Sonda Cəbrayıl rayon ərazi ilk partiya təşkilatının sədrləri Nəriman Əsədov, Sahib Süleymanov, Aydın Bəyişov, gənclər birliyinin sədri Əli Məmmədli, partiya fəallarından Əli Kazımov və Məlahət Əzizova çıxış ediblər.

*Nəzakət ƏLƏDDİNQIZI*

## Möhsün Nəriman: "Naxçıvan inamla inkişaf edən diyardır"



İran İslam Respublikasının qonşu Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə qarşılıqlı əlaqələri yüksək səviyyədədir. Bizim Naxçıvan Muxtar Respublikasına səfərimizin məqsədi burada yaradılan imkanlarla daha yaxından tanış olmaq, gələcəkdə birgə görəcəyimiz işlərin perspektivini müəyyən etməkdir.

Bu sözləri AZƏRTAC-ın Naxçıvan bürosuna müsahibəsində İran İslam Respublikasının Araz Azad Ticarət və Sənaye Zonasının icraçı direktoru Möhsün Nəriman söyləyib.

Möhsün Nəriman deyib: Araz Azad Ticarət və Sənaye Zonasını Naxçıvan Muxtar Respublikasından Araz çayı ayırır. Düşünürəm ki, biz iqtisadiyyat, mədəniyyət, turizm və digər sahələrdə daha sıx əməkdaşlıq qura bilərik. Araz Azad Ticarət və Sənaye Zonasında sadaladığım sahələr üzrə geniş imkanlar mövcuddur. Bu gün Naxçıvanla tanışlıq zamanı da burada həmin istiqamətlər üzrə əlverişli şəraitin yaradıldığının bir daha şahidi olduq. Səfər zamanı bütün bu məsələlərlə bağlı bir sıra yüksək səviyyəli görüşlər keçirdik, gələcək əməkdaşlığa dair çox faydalı müzakirələr apardıq. Düşünürəm ki, bu istiqamətdə həyata keçirilən işlər müsbət nəticələr verəcəkdir.

Möhsün Nəriman vurğulayıb ki, qarşılıqlı görüşlərin davamlı keçirilməsi hər iki tərəfin bir-birinin iqtisadi potensialına daha yaxşı bələd olmasına şərait yaradır. Belə olan halda gələcəkdə daha geniş əməkdaşlıq üçün yeni imkanlar yaranır. O deyib: "Bu gün mənimlə bərabər nümayəndə heyətinin digər üzvləri də qarşılıqlı görüşlər keçirərək əməkdaşlığın istiqamətlərini müəyyən etdilər. Bununla yanaşı, Naxçıvanda fəaliyyət göstərən bir sıra istehsal müəssisələrində olduq, yaradılan şəraitlə, istehsal prosesləri ilə maraqlandıq. Qısa tanışlıq zamanı Naxçıvanın inamla inkişaf edən bir diyar olduğuna əmin oldum. Hesab edirəm ki, əməkdaşlığımız bu yüksəlişi daha da sürətləndirəcək və ümumilikdə, hər iki qonşu ölkənin inkişafına təkan verəcəkdir".

İran İslam Respublikasının Araz Azad Ticarət və Sənaye Zonasının icraçı direktoru vurğulayıb ki, qarşılıqlı görüşlər bundan sonra da davam edəcək, atılacaq addımlar hər iki tərəf üçün səmərəli olacaqdır.

## Qarabağ icmasının rəhbəri ATƏT sədri ilə görüşüb



Dağlıq Qarabağın Azərbaycanlı İcmasının rəhbəri Tural Gəncəliyev Bakıda səfərdə olan ATƏT-in fəaliyyətdə olan sədri, Slovakiyanın xarici işlər və Avropa naziri Miroslav Layçakla görüşüb. SİA-nın verdiyi məlumata görə, bunu icma rəhbəri bildirib. "Bu gün Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin Azərbaycanlı icmasının üzvləri ilə birgə ATƏT-in fəaliyyətdə olan sədri Miroslav Layçak ilə görüş keçirdim. Biz inanırıq ki, Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin hər iki icması Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri, suverenliyi və ərazi bütövlüyü çərçivəsində sülh şəraitində birgə mövcud olmalıdır", -deyə T.Gəncəliyev vurğulayıb.

## Zoqrabyan hökumətdən hesabat tələb edir



Ermənistan parlamentinin insan haqları və ictimaiyyətlə əlaqələr komissiyasının sədri, "Çiçəklənən Ermənistan" partiyasından olan deputat Naira Zoqrabyan 10 min insanın ixtisara salınmasının ölkənin maraqları üçün hansı məna kəsb etdiyini anlamadığını bildirib. SİA xəbər verir ki, bu barədə Sutnik Armeniya yazır. Belə ki, Zoqrabyan sabiq ədliyyə naziri Arpine Ovannisyanın dərc etdirdiyi sənədi facebook vasitəsi ilə ictimailəşdirilməsindən sonra bunları deyib. "Bu məsələ bizi narahat edir. Düşünürəm ki, sabah hökumət saatında həmin məsələ qaldırılmalıdır", deyən Zoqrabyan əlavə edib ki, 10 min insanın ixtisara salınmasının dövlət maraqları üçün hansı məna kəsb etməsi də izah edilməlidir. Onun sözlərinə görə, həm vitse-siker, həm də nazir işsizliklə ölkənin maraqları arasında hansı fərqin olduğunu deməlidirlər, eləcə də hökumət də bu məsələ barədə açıq danışmalıdır.

# Cəmil Həsənlidən Qənimət Zahidə tərs şapalaq!

*Yaxud mitinq müraciətini kimlər edir?*

***Bir neçə müddətdir ki, dağıdıcı müxalifət düşərgəsi, xüsusilə, AXCP sədri Əli Kərimlinin dirijor çubuğu ilə idarə olunan "Milli Şura" mitinq keçirmək üçün Bakı meriyasına müraciət etsə də, vətəndaşlar tərəfindən daxil olunan çoxsaylı haqlı şikayətlərə görə, həmin mitinqlərin keçirilməsinə icazə verilməyib.***




Sözügedən məsələni qəsdən və müxtəlif bəhanələr vasitəsi ilə şişirdərək, icazənin verilməməsini özlərinə uyğun şəkildə tirajlayan radikallar bu addımları ilə xarici ölkələrdəki ağaları qarşısında məğlub olmadıqlarını göstərməyə çalışırlar. Daha dəqiq desək, son iki ayda ölkə rəhbərinin, hakimiyyətin apardığı inqilabi islahatlar - şəhid ailələrinə birdəfəlik kompensasiyaların verilməsindən başlayaraq, əhalinin problemli bank kreditlərinə son qoyulmasınadək atılan addımlar dağıdıcıları əməlli-başlı şəkildə təlaşa salıb və sözün əsl mənasında, onların antidövlətçilik mövqelərini köklü şəkildə çatladıb. Hətta Ə.Kərimli bu islahatları "mitinqin nəticəsi" kimi zorla ictimai rəyə sırımağa çalışsa da, xalq onun populust iddialarına, nəinki inanmadı, eyni zamanda, rədd etdi.

## Hətta ən kiçik narazılıqları aradan qaldırdıqca, dağıdıcı müxalifətin və "siyasi mühacir"lərin "kitabları bağlanır"

Maraqlı məqam isə budur ki, məhz mitinqlərin keçirilməməsi narahatlığı, artıq xarici ölkələrdə "siyasi mühacir" adı altında var-gəl edənləri, sosial şəbəkələrdə "şir-pələnglik" edənləri də sarsıdıb. Çünki hakimiyyət, bilavasitə xalqın maraqlarından çıxış edərək, nəinki illərdən bəri yığılmış bir sıra problemləri, eləcə də, ən kiçik narazılıqları aradan qaldırdıqca, dağıdıcı müxalifətin və "siyasi mühacirlərin" necə deyərlər, "kitabları bağlanır", özü də birdəfəlik. Belə olan halda, qrant qazanının da, qapağının da üstünə ağır bir daş qoyulur.

Məhz bu reallığı dərk edənlər - Qərb ölkələrində Azərbaycan dövlətinin maraqlarını satmaqla məşğul olan "siyasi mühacirlər" kürklərinə bit-birə düşmüşlər kimi qaşınırlar, qorxurlar, təlaşlanırlar və ona görə də, mitinq çağırışları edirlər.

## Avropada "siyasi mühacirlik" etmək nə, on min adamın adından danışmaq nə?..

Belə ki, təkcə Məhəmməd Mirzəlinin, Səid Nurinin, Namiq Feyziyevin sosial şəbəkələr vasitəsi ilə son çağırışlarına diqqət yetirsək, ortadakı faktı görərik. Misal üçün, onların fikirlərinə ötəri diqqət yetirsək, görərik ki, iddialarına görə, guya mitinq olarsa, on minə yaxın (?) adam toplaşacaqmış, hətta qanunvericiliyə zidd şüarlar səslənməyəcəkmiş, o cümlədən, polisin müdaxiləsi olarsa, günah elə polisdə olacaqmış... (?!) Beləliklə, bu müraciəti yayanların adlarını bir daha sadalayaq - M.Mirzəli, S.Nuri, N.Feyziyev - hər üçü Avropada yaşayır və qrantyeyənliklə məşğuldurlar, yəni xaricdə oturub, Bakıda yürüş keçirmək üçün 10 min nəfərin adından çənə-boğaz döyürlər...

## Cəmil Həsənli nəyi düz deyib?

Bu arada, "Milli Şura"nın sədri C.Həsənli maraqlı fikri ilə yadda qalıb. Belə ki, yenə də xaricdə Azərbaycan dövlətinin maraqları əleyhinə fəaliyyət göstərən Q.Zahidin dırnaqarası yayımına qatılan Həsənli onu yayıma dəvət edən Q.Zahidi ittiham edib. O, qeyd edib ki, xaricdən insanları icazəsiz yürüşlərə cəlb etmək doğru addım deyil. Onun sözlərinə görə, aksiyanı təşkil edən şəxs ən ön sırada dayanmalıdır. Yoxsa özü təhlükəsiz yerdə olub, gəncləri polisin qabağına vermək düzgün yanaşma hesab oluna bilməz və s.

Əslində, bu firkin arxasında bir çox məsələlər dayanır. Məsələn, C.Həsənli Q.Zahidə, eləcə də, Avropanın küçələrində sülənərək insanları mitinqlərə çağıran "siyasi mühacir"lərə eyham vurub ki, belə mübariz adamlarsınızsa, gəlin, siyasi mübarizənizi Bakıda aparın. Yoxsa ki, Avropada oturub, millətin başını zəhlətökən siyasi mülahizələrinizlə aparmayın. Düz sözə nə deyəsən ki? "Milli Şura"nın sədri bu fikri ilə, əslində, həm Qənimətə, həm də yuxarıda adları çəkilənlərə tərs şapalaq ilişdirib. Çox yəqin ki, bu şapalağın səsi bir azdan daha möhkəm çıxacaq. Hətta AXCP sədri Ə.Kərimli arada-sırada ona sərf etməyən "quşlar buraxan" C.Həsənlini bir müddət mediadan kənarda saxlamaq qərarını da verər. Hər halda, olanlar göz önündədir...

***Rövşən NURƏDDİNOĞLU***

# Əmlak və torpaq vergiləri üzrə borcların bir hissəsi silinəcək

***Azərbaycanda özəlləşdiriləcək dövlət əmlakının (müəssisələrinin) 2019-cu ilin martın 1-dək olan əmlak və torpaq vergiləri üzrə borclarının bir hissəsi silinəcək. SİA-nın məlumatına görə, bu barədə məsələ Milli Məclisin dünən keçirilən plenar iclasında müzakirəyə çıxarılan "Azərbaycanda özəlləşdiriləcək dövlət əmlakının (müəssisələrinin) 2019-cu ilin 1 mart tarixinə mövcud olan əmlak və torpaq vergiləri üzrə borclarının tənzimlənməsi haqqında" qanun layihəsində öz əksini tapıb.***

Bu qanun qüvvəyə minmə tarixindən sonrakı dövrdə özəlləşdirilməsi başa çatan dövlət əmlakının bu qanunun qüvvəyə minmə tarixinədək olan əmlak və torpaq vergiləri üzrə borcları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan



(qurum) tərəfindən aşağıdakı qaydada silinir:

1. Dövlət əmlakının özəlləşdirildiyi tarixdən etibarən bir il ərzində bu borcların 30 faizi ödənildikdə ödənilməmiş borcların 70 faizi silinir,

2. Dövlət əmlakının özəlləşdirildiyi tarixdən etibarən iki il ərzində bu borcların 50 faizi ödənildikdə ödənilməmiş borcların 50 faizi silinir,

3. Dövlət əmlakının özəlləşdirildiyi tarixdən etibarən üç il ərzində bu borcların 70 faizi ödənildikdə ödənilməmiş borcların 30 faizi silinir.

Bu qanunun müddəaları dövlət əmlakının (müəssisələrinin) bu qanunla müəyyən edilmiş borclarının məcburi ödənilməsi barəsində məhkəmə qərarı qəbul edilən, lakin bu qanunun qüvvəyə minmə tarixinə mövcud olan ödənilməmiş hissələrinə də şamil edilir. Qanun martın 1-dən qüvvəyə minir.

***Nailə Məhərrəmova***



**Təhmasib Novruzov**

# Gorun çatlamadımı, İmadəddin Nəsimi?

***Son illər Azərbaycanda "müğənni"lərlə, "şair"lərlə yanaşı, "bəstəkar"ların da sayı durmadan artmaqdadır. Yazdıqları dünya ədəbiyyatının ən qiymətli xəzinəsinə daxil olan şairlərimizin nəvələrinin cızma-qaraları, nəinki dünya, heç öz xalqının da malına çevrilə bilmir. Son illər bir nümunə də olsun sanballı musiqi əsərinin meydana gəlməməsi, gecə-gündüz özlərini tərifləyən və təriflədən müğənnilərin ciddi beynəlxalq nailliyyət əldə edə bilməməsi nədən bizləri düşündürmür? Üzeyir Hacıbəyovun, Qara Qarayevin, Fikrət Əmirovun, Arif Məlikovun müstəmləkə altında yaşayan bir xalqın bəstəkarları olmalarına rəğmən, Kremlin divarlarını darmadağın edib dünya arenasına çıxmaları, Müslüm Maqomayevin, Rəşid Behbudovun, Zeynəb Xanlarovanın bütün sədləri aşaraq sənətləri ilə dünyada xalqımızı layiqincə təmsil etmələri müqabilində, indiki müğənnilərimizin və özünü bəstəkar adlandıranların Azərbaycan televiziyalarının efirlərində özlərini reklam etməkdən o yana çıxa bilməmələri, hesab edirəm ki, hər kəsi ciddi düşündürməlidir.***

Nəsimi, Füzuli, Vaqif və Sabir nəvələrinin isə çayxana səviyyəli "şeir"lərindən danışmağa dəyməz. Görəsən, bunun səbəbi və yaxud səbəbləri nədir və yaxud nələrdir? Bir həqiqəti, ədalət naminə deməliyik ki, dünyanın heç bir ölkəsində sənət adamlarına bizim ölkədəki qədər dəyər verilmir. Sənət adamlarının hər bir problemi dövlət səviyyəsində həll olunur, müxtəlif adlarda təqaüdlər, fəxri adlar, sosial təminatlar və s. ən yüksək səviyyədə həllini tapır! O zaman nədən inkişaf əvəzinə geriləyir, cılızlaşır, səviyyəsiz əsərlərlə yeni nəslin mənəviyyatına qənim kəsilməyi davam etdirirlər "sənət" adamları? Mənim şəxsi qənaətimə görə, bunun səbəblər toplusunun önündə laqeydlik deyilən bəla dayanır. O qədər laqeydik ki, gözlərimiz qarşısında sənət və inkişafımızın meyarına çevrilmək əvəzinə, mənəviyyatımızın bəlasına çevrilir, bizlər isə, bunu seyr edib susuruq. Bilmirəm gələcək nəsillər Nəsimini, Füzulini oxuyub, müasir yazarlarımıza üz tutanda, təkcə onu yazanları qınayacaq, yoxsa bütövlükdə, indiki nəsli? Dediyimin təsdiqi üçün çox misallar gətirə bilərəm. Amma son günlər hər bir ziyalını narahat etməli olan bir fakta diqqətləri cəlb etməklə, nə demək istədiyimi anlatmağa çalışacağam. Bilirik ki, 2019-cu il Azərbaycan Respublikası Prezidentinin qərarı ilə "NƏSİMİ İLİ" elan edilmişdir. Bu fakt Azərbaycan Dövlətinin mənəvi dəyərlərimizə, onun mühüm qolu olan klassik ədəbiyyatımıza qayğısının bariz nümunəsidir. Gözləmək olar ki, Nəsimi ili təkcə şairin yubileyinin keçirilməsi ilə müşahidə olunmayacaq, həm də bu poetik fəlsəfə dühasının əsərlərinin gənclərə öyrədilməsində, onun yaradıcılığının beynəlxalq aləmə daha geniş yayılmasında yeni və ciddi addımlar atılacaq. Ancaq ilin ilk aylarından ortaya qoyulan mövqe, belə gedərsə yanıldığımıza işarə vurur. Konkret olaraq, böyük şairin hələ də fəlsəfi yükü tam açılmayan məşhur "Məndə sığar iki cahan..." mətləli şeirinə "bəstələnən" musiqi bunu deməyə bizləri vadar edir. Klassik poeziyaya "Leyli və Məcnun" operası, "Yeddi gözəl" baleti, "Sənsiz" romansı, "Şəbi-hicran" kantatası və s. kimi əzəmətli musiqilər bəstələyən xalqın övladları Nəsiminin bütün bəşəri varlığın fəlsəfi yükünü daşıyan, dünya poeziyasının şah əsərlərindən olan qitəsinin rep üslubunda bayağı, səviyyəsiz bir "bəstə" ilə xalqa təqdim edilməsi həm Nəsimiyə, həm də ümumən Azərbaycan sənət dünyasına, yumşaq desək, hörmətsizlikdir. Klassik poeziyaya müraciət edən bəstəkar, ən azı, müraciət etdiyi şeirin əruz vəzninin hansı bəhrinin hansı təfiləsində yazıldığını və həmin bəhrin, təfilənin mahiyyətini öyrənməli, sonra şeirə müraciət etməlidir. Bu "rep"i yazan (Deyilənə görə Afət Fərmanqızı adlı bir müğənnidir), ümumiyyətlə, bilirmi, həmin şeir hansı vəzndə yazılıb? Bunları yazmaqda məqsədim belə "bəstəkar"lara dərs vermək deyil (Onsuz da, onlar öyrənməkdən çox, cılız biliklərini öyrətməklə məşğuldurlar və bizim dediklərimizi heç veclərinə də almayacaqlar). AMEA-nın Dilçilik İnstitutunun, Ədəbiyyat İnstitutunun, eləcə də, Yazıçılar Birliyinin, Bəstəkarlar İttifaqının belə bir fakta qəribə bir susqunluq nümayiş etdirmələri anlaşılmazdır və bu yazını da yazmaqda məqsədim cəmiyyəti, ziyalıları belə məqamlarda susqunluğun xalqımıza vurduğu mənəvi zərəri xatırlatmaqdan ibarətdir. Xatırlatdım da! Nəticəsini gözləyək. Xocalı faciəsinin ildönümü ərəfəsində olduğumuza görə, mövzunu da bu qətliamla bağlamaq yerinə düşər. Belə faciələri tarix boyu bizə yaşadanlar düşmənlərimiz olub. Məqsəd də xalqımızı mənən sındırmaq, kölə etmək, yurdumuza sahib çıxmaqdan ibarət olub. Belə faciələrə hüquqi qiymət verilməsi üçün kar-kor dünyanın zorla eşitməsinə, görməsinə çalışırıq. Bəs öz içimizdə bizim milli dəyərlərimizi heçə sayan, milləti soyundan ayırmağa çalışanların dərdini kimə deyək? Onu da bəlkə BMT-dən, AŞPA-dan, ATƏT-dən umaq?..

Mövzuya qayıdacağıq!

# Azərbaycanda insan azadlıqlarının təmin olunması proritet istiqamətlərdəndir

*Dahi Öndərimiz Heydər Əliyevin əsasını qoyduğu siyasət hər bir vətəndaşın azad, sərbəst yaşamaq və öz rifahını yaxşılaşdırmaqdan ibarət olmuşdur*

***Demokratik cəmiyyətin tərkib hissəsi olan insan azadlıqlarının müdafiəsi, hüquqi dövlət quruculuğu ölkəmizdə həyata keçirilən dövlət siyasətin ana xəttini təşkil edir. 1991-ci il oktyabr ayının 18-də Azərbaycan parlamenti tərəfindən qəbul edilmiş “Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı”nda “İnsan Hüquqları haqqında Ümumi Bəyannamə”yə və hamılıqla qəbul edilmiş başqa beynəlxalq hüquq sənədlərinə qoşulduğunu bəyan etmiş, onlarda nəzərdə tutulan bütün hüquq və azadlıqlara vətəndaşların cinsindən, irqindən və milli mənsubiyyətindən, dini etiqadından, sosial mənşəyindən, siyasi əqidəsindən və başqa hallardan asılı olmayaraq əməl edilməsini, bu hüquq və azadlıqların maneəsiz həyata keçirilməsinin təmin olunmasını öz öhdəsinə götürmüşdür.***



Müstəqilliyimizin ilk illərində Azərbaycan dövləti və xalqı ciddi problemlərlə üzləşməli oldu. Mütəllibov hakimiyyətinin daha sonra AXC-Müsavat iqtidarının səriştəsiz siyasəti nəticəsində, dövlətçiliyimiz məhv olmaq, xalqın sabah olan inamı alt-üst olmuşdu. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin xalqın çağırışı ilə hakimiyyətə qayıdışından sonra ölkədə siyasi sabitlik təmin olundu, zorakı dövlət çevrilişlərinin qarşısı alındı, qanunçuluq və hüquq qaydaları möhkəmləndirildi, vətəndaş cəmiyyətinin formalaşdırılması, insan hüquq və azadlıqlarının qorunması dövlətin başlıca vəzifəsinə çevrilməyə başladı. Ümummilli Liderin rəhbərliyi ilə hazırlanan və 1995-ci ilin 12 noyabrında ümumxalq səsverməsi ilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası ölkənin gələcək inkişaf prioritetlərini müəyyənləşdirməklə yanaşı, insan hüquq və azadlıqlarının təminatını dövlətin ali məqsədi kimi ön plana çıxarmışdır. Konstitusiyada əksini tapmış bu strateji məqsəd, ilk növbədə, hüquqi islahatları və insan haqlarının qorunması prinsipinin real həyatda tətbiqini zəruri etmişdir.

## Azərbaycanda vətəndaş hüquqları və azadlıqları təmin olunur

Konstitusiyanın qəbulundan sonra Azərbaycanda hüquqi islahatların keyfiyyətcə yeni mərhələsi başlanmış, yeni qanunvericilik aktları hazırlanaraq qəbul edilmişdir.

Konstitusiyanın III fəsli, bütövlükdə, yəni 48 maddə insan hüquq və azadlıqlarına həsr olunmuşdur. Əsas Qanunun 71-ci maddəsində insan və vətəndaş hüquqlarına və azadlıqlarına təminat verilir, bu hüquqları və azadlıqları qorumaq qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının qarşısında mühüm vəzifə kimi qoyulur. İnsan şəxsiyyətinə və ləyaqətinə hörmət, dövlət hakimiyyət orqanlarının demokratik qaydada formalaşması vasitəsilə xalqın hakimiyyət funksiyasının həyata keçirilməsində iştirakı, insan hüquqlarının səmərəli müdafiəsi mexanizmlərinin mövcudluğu, ümumbəşəri dəyərlərə sadiqlik, milli qanunvericiliyin beynəlxalq hüquqa uyğunlaşdırılması və bu kimi digər məsələlər Əsas Qanunumuzun mahiyyətini təşkil edir. Milli və ümumbəşəriliyin vəhdətini özündə əks etdirən Azərbaycan Konstitusiyası dünyanın bütün demokratik ölkələrinin təcrübəsinə əsaslanmaqla yanaşı, həm də milli xüsusiyyətləri də nəzərə almışdır. Konstitusiyamızın üçdə birini təşkil edən “Əsas insan və vətəndaş hüquqları və azadlıqları” fəslində əksini tapdı. Sonradan bu sahədə ardıcıl iş davam etdirilərək, Konstitusiyanın özü daha da təkmilləşdirildi.

Ulu Öndər Heydər Əliyev hələ konstitusiya layihəsinin hazırlanması zamanı demişdir: “Biz elə bir layihə hazırlamalı və nəhayət, elə bir konstitusiya qəbul etməliyik ki, o, müstəqil Azərbaycan Respublikasında demokratik prinsiplər, əsasında uzun müddət sabit yaşamasını təmin edən əsas qanun və tarixi sənəd olsun. Hakimiyyət bölgüsü - ali icra, qanunvericilik, məhkəmə hakimiyyəti - bunlar hamısı xalqın iradəsinə söykənməli, seçkilər yolu ilə təmin olunmalıdır”.

Dahi Öndərimiz Heydər Əliyevin əsasını qoyduğu siyasət Azərbaycanın hər bir vətəndaşına azad, sərbəst yaşamaq hüquqlarını təmin etmək və öz rifahını yaxşılaşdırmaq imkanları yaratmaqdan ibarət olmuşdur.

Dahi Öndər Heydər Əliyevin 1998-ci il 18 iyun tarixli Sərəncamı ilə insan hüquqlarının müdafiəsi sahəsində Dövlət Proqramı təsdiq olunur. Dövlət Proqramı çərçivəsində qanunvericilik və institusional islahatlar həyata keçirilmişdir. Demokratik ədalət mühakiməsi prinsiplərinə əsaslanan yeni məhkəmə sistemi, konstitusiya nəzarəti, insan hüquqları üzrə müvəkkil kimi yeni təsisatlar yaradılmış, hüquq-mühafizə fəaliyyəti təkmilləşdirilmiş, qeyri-hökumət təşkilatlarının, kütləvi informasiya vasitələrinin fəaliyyəti genişlənmiş, insan hüquqlarının təmini sahəsində effektiv müdafiə mexanizmləri formalaşdırılmışdır.

## Dəyişməyən və uğurla davam etdirilən siyasət

Dahi Öndərimiz Heydər Əliyevin əsasını qoyduğu siyasəti uğurla davam etdirən ölkə Prezidenti İlham Əliyevin yürütdüyü iqtisadi, siyasi və hüquqi islahatların əsasında da, məhz insan və vətəndaş hüquq və azadlıqlarının təmini məsələsi dayanır. Dövlət başçısının 28 dekabr 2006-cı il tarixli Sərəncamı ilə “Azərbaycan Respublikasında İnsan Hüquqlarının Müdafiəsi üzrə Milli Fəaliyyət Planı” təsdiq edilmişdir. Bu sənəd insan hüquqlarının təmin edilməsi prosesinin keyfiyyətcə yeni müstəviyə keçməsinə, universal və regional səviyyədə yeni əməkdaşlıq strategiyasının qurulmasına, dövlətlə vətəndaş cəmiyyəti arasında tərəfdaşlıq münasibətlərinin yaradılmasına xidmət etmişdir. Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi islahatlar nəticəsində demokratik vətəndaş cəmiyyəti, hüquqi və dünyəvi dövlət quruculuğu konstitusiyası, bazar münasibətlərinə əsaslanan güclü iqtisadiyyat, balanslaşdırılmış xarici siyasət və digər sahələrdə mütərəqqi uğurlar əldə olunmuşdur. Milli Məclisin komitə sədri Əli Hüseynli, haqlı olaraq qeyd edir ki, “Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dövlət idarəetməsinin cəmiyyət üzvlərinin maraqları çərçivəsində həyata keçirilməsinin təmin olunması istiqamətində prinsipial addımların atılması xüsusi nəzarətdə saxlayır.Azərbaycanda həyata keçirilən inzibati islahatların başlıca hədəfi idarəetmənin cəmiyyətin gözləntilərinə cavab verməsini təmin etməkdən ibarətdir”.

## Beynəlxalq təşkilatlarla qurulan səmərəli əməkdaşlıq

Azərbaycan Respublikası insan hüquqları sahəsində fəaliyyət göstərən nüfuzlu beynəlxalq qurumlarla əməkdaşlığı inkişaf etdirmiş, insan hüquqlarının müdafiəsi sahəsində 50-dən çox beynəlxalq sənədə tərəfdar çıxmış və bu sahədə beynəlxalq öhdəliklərin həyata keçirilməsində mühüm nailiyyətlər əldə etmişdir. Hüquqi dövlət quruculuğu işində qısa müddətdə mühüm uğurlar əldə edilməsinin, cəmiyyət həyatının bütün sferalarını əhatə edən demokratik islahatların qətiyyətlə və ardıcıl həyata keçirilməsinin nəticəsi olaraq Azərbaycan BMT-nin yeni yaradılmış İnsan Hüquqları Şurasına üzv seçilmişdir. 2006-cı il mayın 9-da BMT Baş Assambleyasında keçirilən seçkilər nəticəsində Azərbaycanın bu quruma üzv seçilməsi ölkəmizin əldə etdiyi ən mühüm nailiyyətlərindən biridir. Azərbaycan-BMT əlaqələrinin inkişafı, möhkəmlənməsi və ölkəmizin bu təşkilatda böyük nüfuz qazanmasını göstərən ən əhəmiyyətli hadisə isə 2011-ci il oktyabrın 24-də Azərbaycan Respublikasının BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi və bu quruma rəhbərlik etməsi olmuşdur.

Avropa Şurasına üzv qəbul olunduqdan sonra Azərbaycan “İnsan hüquqlarının müdafiəsi haqqında Avropa Konvensiyasına” qoşuldu. Bu zaman o öz üzərinə milli qanunvericiliyin beynəlxalq Avropa standartlarına uyğun təkmilləşdirilməsi öhdəliyini götürdü. Bu istiqamətdə atılan addımlardan ən mühümü Ombudsman Təsisatının yaradılması idi. 2001-ci il dekabrın 28-də Milli Məclis tərəfindən “Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili haqqında” Azərbaycan Respublikasının Konstitusiya qanunu qəbul olundu. Azərbaycan Prezidenti İlham Əliyevin 18 iyun 2007-ci il tarixli Sərəncamı ilə hər il iyunun 18-i ölkəmizdə İnsan Hüquqları Günü kimi qeyd olunur. Əlamətdar tarixlə əlaqədar Azərbaycan Respublikasının İnsan Hüquqları uzrə müvəkkili Elmira Süleymanovanın təşəbbüsü ilə ənənəvi olaraq mayın 18-dən iyunun 18-dək respublikamızda İnsan hüquqları aylığı keçirilir. Aylığın məqsədi insan hüquqları sahəsində ötən dövrdə əldə edilmiş nailiyyətləri, habelə mövcud problemlərin həlli yollarını müəyyənləşdirməkdir. Azərbaycan Prezidenti İlham Əliyev ölkədə insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq məqsədilə 2011-ci il dekabrın 27-də imzaladığı Sərəncamla “Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı”nı təsdiq etmişdir. İnsan hüquqları aylığı çərçivəsində “Milli Fəaliyyət Proqramı”nın müddəalarına əsaslanmaqla, ölkəmizin bütün regionlarında dövlət qurumları, QHT və KİV-lər, beynəlxalq təşkilatlar, icmalar tərəfindən insan hüquqlarının effektiv müdafiəsinə yeni mərhələ açan, əhalinin müxtəlif qruplarını əhatə etməklə insan hüquqlarının təbliğ edən mövzularda müxtəlif maarifləndirmə tədbirləri və müzakirələr təşkil olunur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dövlət siyasətinin təməlində vətəndaş mövqeyinin əhəmiyyətini vurğulamaqla, cəmiyyətdə hər bir vətəndaşın, hər bir insanın qənaətə gəldiyi rəyə dövlətin münasibətinin hiss edilməsini bildirmişdir: “Azərbaycan dövləti sosial dövlətdir, çünki siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Bu gün də belədir, gələcəkdə də belə olacaqdır. Bizim bütün işimizin mərkəzində, təməlində Azərbaycan vətəndaşı dayanır və Azərbaycan vətəndaşının rahat rifah içində yaşaması bizim başlıca borcumuzdur”.

Bir sözlə, aparılan islahatlar və həyata keçirən siyasət bir daha təsdiq edir ki, Azərbaycan hüquqi-demokratik dövlət quruculuğuna, insan, hüquq və azadlıqlarının ən yüksək səviyyədə müdafiqsinə sadiqdir . Söz yox ki, bu siyasət dəyişməzdir və bundan sonrada davam etdiriləcək. Çünki Ulu Öndərimiz Heydər Əliyevin əsasını qoyduğu və ölkə Prezidenti İlham Əliyevin uğurla davam etdirdiyi siyasət özündə bu prinsipləri ehtiva edir.

***Rəfiqə Hüseynova***
***Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi fərdi jurnalist yazıları müsabiqəsinə***

# Riyakarlıq və nankorluq - yan-yana...

## *Əli Kərimli ilə Mehman Hüseynovun müqayisəsi*

***Biri radikal müxalifət partiyasının bölücü sədri, digəri bloqer. Biri Əli Kərimli, digəri isə Mehman Hüseynov. Əslində, bu iki fərdin bir-birinə müəyyən bənzərlikləri də var. Ə.Kərimli riyakar, M.Hüseynov isə nankor! Yəqin ki, bir neçə gün əvvəl AXCP sədrinin zaman-zaman siyasi arenadakı mövqeyini möhkəmləndirməsindən ötrü, hətta hakimiyyətlə gizli sövdələşmələrə getməsi barədə yayılan faktları bir çoxları oxuyaraq, müəyyən nəticələr çıxarmış oldu. Bu gün sosial şəbəkələrdə gözünü yumaraq, ağzını açan "axecepeçi"lərin sədri sabah yenidən adətkərdə olduğu ayağısürüşkənliyini işə salaraq, yalmanmağa, yaltaqlanmağa və riyakarlığa əl ata bilər. Bunu etmək onun üçün heç də çətin deyil. Çünki "Yurd" şefi mənəviyyatsızlığını və ləyaqətsizliyini çoxdan boynuna alıb sevə-sevə gəzdirir!***



### Söhbət Əli Kərimlidən gedirsə, demək, burada hər cür alçaqlıqları və rəzillikləri müşahidə etmək mümkündür

Elə M.Hüseynov məsələsində də riyakar Kərimli özünə siyasi dividend qazanmağa cəhd göstərdi. Belə ki, bloqer azadlığa çıxar-çıxmaz AXCP sədri dərhal özünü onun yanında göstərdi və reklam etdirdi. Halbuki M.Hüseynov azadlığa çıxandan dərhal sonra onu qarşılayanlar arasında Müsavatın sabiq başqanı İsa Qəmbərlə hazırkı başqanı Arif Hacılı da yer almışdılar. Ancaq onlar, müəyyən mənada, naftalin qoxusu verən bir-iki cümlələrini işlətsələr də, Ə.Kərimli kimi M.Hüseynovu evinə qədər müşayiət etmədilər, nədənsə...

Ə.Kərimli isə bloqerin "quyruğuna" düşərək, düz evinə qədər getdi, üstəlik, özünə lazım olan reklamını da apardı. Təbii ki, bu yazıda M.Hüseynovun da nankorluğu barədə qeydlərimizi edəcəyik. Lakin bu barədə daha sonra, yazının sonunda...

Qayıdaq Ə.Kərimliyə. Xatırlaya bilərik ki, AXCP sədri Ə.Kərimli əvvəlcə M.Hüseynovun adından istifadə edib, 19 yanvar mitinqini keçirdi. Sonra mitinqə bir az çox adam gəldiyini görüb dedi ki, bu mitinqin Mehmana heç bir aidiyyətə-filanı yox idi, hətta fikirlərini dəyişərək, hakimiyyətin apardığı inqilabi islahatların "təkanverici gücü" kimi mitinqini bu istiqamətə yönlətməyə çalışdı. Düzdür, Kərimlinin bu istəyi də alınmadı. Lakin... Bloqer Mehman azadlığa çıxan kimi dərhal getdi onun yanına ki, onu ilk qarşılayan da özü olsun. İndi buna nə ad verəsən, onu necə adlandırasan?! Əslində isə, burada təəccüblənəcək də heç nə yoxdur. Çünki söhbət Ə.Kərimlidən gedirsə, demək ki, burada hər cür alçaqlıqları, rəzillikləri müşahidə etmək mümkündür.

### "Hakimiyyət elə bilməsin ki, mən həbsdən çıxandan sonra ağıllı olacağam" deyən nankor Mehman bununla ağıllı insan olmadığını da etiraf etdi

İndi isə keçid edək M.Hüseynova. Həmin M.Hüseynova ki, həbsdə olduğu müddətdə gah "aclıq aksiyası" keçirdiyini bəyan etdi, gah da "aclıq aksiyasını" su, meyvə və yoğurt yeməklə sürdürdüyünü yaydı. Amma sonradan bəlli oldu ki, M.Hüseynov heç bir aclıq aksiyası keçirmirmiş, onun mədəsində problemlər var və buna görə də, həkimlərin müəyyən elədiyi pəhriz saxlayırmış. Hətta beynəlxalq təşkilatların təmsilçiləri belə, onu həbsxanada ziyarət edərkən, sağlamlığına heyran qaldıqlarını gizlətmədilər. Digər məsələlər barədə də çoxları xəbərdardır zatən...

Məsələnin digər tərəfi də budur ki, M.Hüseynov istər azadlığa çıxdığı gün evinin qarşısında, istərsə də, evində keçirdiyi mətbuat konfransında dediyi fikirlərdir. Evinin qarşısında müxalifətyönlü sayt və internet TV-lərinin suallarını cavablandırarkən, o guya "qorxmaz müxalifətçi" olduğunu göstərmək üçün, sözün əsl mənasında, həqiqəti dedi. "Hakimiyyət elə bilməsin ki, həbsdən çıxandan sonra mən ağıllı olacağam, daha əvvəlki kimi çıxışlar etməyəcəyəm" deyən Mehman sübut etdi ki, reallıqda o və onun kimiləri ağıllı-filan insanlar deyillər. Çünki ağıllı, və düşüncəli adam özünü heç vaxt Ə.Kərimli kimi riyakarların yanında tapmaz!

Bir də ki, M.Hüseynov evində keçirdiyi və xarici diplomatların da iştirak etdiyi mətbuat konfransında bir etirafı etməliydi ki, əgər ölkədə söz və ifadə azadlığı olmasaydı, o, nə mətbuat konfransı keçirə bilər, nə də ki, ümumiyyətlə, bloqerlik fəaliyyətini davam etdirmək niyyətində olduğunu bəyan edərdi.

Beləliklə, riyakarlıq və nankorluq, əslində, bir-birinə bənzər məsələlərdir və əgər Ə.Kərimli ilə M.Hüseynovu yan-yana qoyarsaq, bunların canlı obrazlarının şahidlərinə çevrilmiş olarıq.

***Rövşən NURƏDDİNOĞLU***

# AzerTelecom ADA Universitetində Karyera sərgisində iştirak edib

***Azərbaycanı beynəlxalq internet şəbəkəsinə bağlayan magistral (backbone) internet provayder şirkəti AzerTelecom ADA Universiteti tərəfindən təşkil olunmuş növbəti - sayca 7-ci Karyera sərgisində iştirak edib. Ölkənin informasiya və kommunikasiya texnologiyaları və digər sektorlarında fəaliyyət göstərən 70-dən çox şirkəti və ADA Universitetinin çoxsaylı tələbə və məzunlarını bir araya gətirən karyera sərgisi zamanı tələbələr və məzunlar ölkənin telekommunikasiya sektorunda qabaqcıl və inkişaf edən şirkət olan AzerTelecom barədə, eləcə də şirkətdə mövcud vakant iş yerləri və təcrübə keçmək imkanları barədə məlumat əldə ediblər, onları maraqlandıran suallara müvafiq cavablar alıblar.***



Karyera sərgisi AzerTelecom şirkəti və hazırda təhsil alan və ya artıq məzun olmuş gənclər arasında yeni əlaqələrin qurulması, şirkətin təqdim etdiyi imkanlar barədə ətraflı şəkildə məlumatlanmaq, istedadlı tələbə və məzunları aşkara çıxarmaq baxımından faydalı olub. Ölkənin İKT sektorunda artıq 10 ildən artıqdır ki, çalışan və korporativ müştərilərə qabaqcıl telekommunikasiya xidmətləri təqdim edən şirkət insan resurslarının davamlı inkişafına xüsusi diqqət yetirir və mütəmadi olaraq karyera sərgilərində iştirak edir.

Şirkət ötən il də ADA Univetrsitetində təşkil olunmuş Karyera sərgisində aktiv iştirak etmişdi. Ötən il karyera sərgisindəmüxtəlif şirkətlər tərəfindən ümumilikdə1300-dən çox tələbə və məzunlar üçün yeni iş imkanları sərgilənmişdi.

Azərbaycanın dinamik şəkildə inkişaf edən telekommunikasiya operatoru olan AzerTelecom 2008-ci ildə təsis edilib və ölkənin ilk mobil operatoru - Bakcell şirkətinin törəmə şirkətidir. AzerTelecom internetin topdan satışı, ayrılmış kanal xidməti, mobil və stasionar telekommunikasiya şəbəkələrində informasiyanın daşınması, beynəlxalq tranzit, SİP telefoniya, FTTx (fiber optik xətt xidməti), Data mərkəz xidmətləri, VPN (virtual şəxsi şəbəkə), DDOS hücumundan müdafiə və digər xidmətlər təqdim edir.

# Bakcell mobil texnologiya sahəsində ən son yenilikləri ölkəyə gətirir




***Azərbaycanın İlk Mobil Operatoru və Ən Sürətli Mobil İnternet Provayderi Bakcell şirkəti mobil sənayenin paytaxtı Barselonada keçirilən Dünya Mobil Konqresinə qatılıb. GSMA tərəfindən təşkil olunan Dünya Mobil Konqresi (Mobile World Congress) mobil telekommunikasiya sahəsinin ən nüfuzlu və ən böyük tədbirlərdən biri sayılır.***

Ənənəvi olaraq hər il keçirilən bu tədbir çərçivəsində 2400-dən artıq şirkət tərəfindən mobil kommunikasiya bazarının gələcəyini təşkil edəcək ən son məhsul və texnologiyalar nümayiş olunur, dünya səviyyəli konfranslar və peşəkar panel müzakirələri keçirilir.

Konqresdə iştirak edən Bakcell nümayəndələri burada təqdim olunan ən son texnoloji yeniliklər və sənayenin ən müasir tendensiyaları ilə tanış olub, bir sıra maraqlı panel və müzakirələrdə iştirak ediblər.

İnnovasiyalar sahəsində lider olan Bakcell şirkəti Azərbaycandakı mobil rabitə istifadəçilərinin ən son texnologiyalardan yararlanması üçün əlindən gələni edir. Qlobal telekommunikasiya tendensiyaları ilə ayaqlaşmaq məqsədilə, Bakcell müntəzəm qaydada ən nüfuzlu telekommunikasiya tədbirləri və sərgilərdə iştirak edərək abunəçilərinə ən yüksək səviyyədə xidmət göstərməyinə kömək edə biləcək ən yaxşı ideyalar ilə qayıdıb onları tətbiq etməyə çalışır. Bakcell öz şəbəkəsinə və müştəri təcrübəsinin daha da inkişaf etdirilməsinə sərmaye yatırmağa davam edəcək.

# Bu qaydaları pozanlar cərimələnəcək



Azərbaycanda dövlət reyestrinin aparılması qaydalarını pozanlar cərimələnəcəklər. SİA-nın məlumatına görə, bununla bağlı İnzibati Xətalar Məcəlləsinə əlavələr edilib. Həmin əlavələrə əsasən, daşınar əmlakın yüklülüyü haqqında qanunvericiliyin pozulmasına görə cərimələr tətbiq ediləcək. Əlavələrdə qeyd edilir ki, daşınar əmlakın yüklülüyünün dövlət reyestrinə "Daşınar əmlakın yüklülüyü haqqında" qanunda nəzərdə tutulmuş qaydada məlumatların təqdim edilməməsinə görə, habelə reyestrə bilərəkdən yanlış və natamam məlumatların təqdim edilməsinə görə fiziki şəxslər 150 manat, vəzifəli şəxslər 700 manat, hüquqi şəxslər 2500 manat məbləğində cərimə ediləcəklər. Daşınar əmlakın yüklülüyünün dövlət reyestrini aparan qurumun vəzifəli şəxsləri tərəfindən məlumatların saxlanılması və reyestin aparılması qaydalarının pozulmasına görə vəzifəli şəxslər 2000 manat məbləğində cərimə edilirlər. Dəyişikliklər Milli Məclisin bu gün keçirilən plenar iclasında səsverməyə qoyularaq ikinci oxunuşda qəbul edilib.

***Nailə Məhərrəmova***

# Azərbaycanda məhkəmə hakimiyyəti və insan hüquqları

***"Məhkəmələr və hakimlər haqqında", "Konstitusiya Məhkəməsi haqqında" qanunlar ölkəmizdə məhkəmə-hüquq islahatları sahəsində ilk, lakin çox mühüm tədbir olmaqla, müstəqil məhkəmə sisteminin formalaşmasına və fəaliyyət göstərməsinə imkan yaradır, konstitusiya nəzarəti ideyası qəbul edilir.***

Konstitusiyada bəyan edilmiş məhkəmə hakimiyyətinin müstəqilliyi "Məhkəmələr və hakimlər haqqında" qanunda inkişaf etdirilərək öz real təminatını tapır və məhkəmə hakimiyyətinin müstəqil fəaliyyət göstərməsinə hüquqi zəmin yaradır. Qanun yeni məhkəmə sistemini, onun təşkilati əsaslarını müəyyən edərək, məhkəmələrin və hakimlərin müstəqilliyinin təmin olunmasına, hər kəsin hüquq və azadlıqlarının məhkəmədə müdafiəsinə təminatın verilməsinə, məhkəmələrin fəaliyyətinin və hakimlərin statusunun beynəlxalq standartlara uyğunlaşdırılmasına yönəlir, köhnə hüquq sistemindən miras qalmış korporativ münasibətləri aradan qaldırır.

Sovet məhkəmə sistemi ikipilləli olmaqla, əlavə olaraq, işlərə məhkəmədə nəzarət qaydasında baxılmasını da nəzərdə tuturdu. Yeni qanunvericilik isə muxtəlif məhkəmə instansiyalarının səlahiyyətlərinə aid olan bu funksiyaların Ali Məhkəmədə cəmləşməsini aradan qaldırır və Ali Məhkəmə kassasiya instansiyası məhkəməsi kimi məhkəmə piramidasının zirvəsində dayanır. "Məhkəmələr və hakimlər haqqında" qanun köhnə məhkəmə quruluşundan tamamilə imtina edir və beynəlxalq standartlara cavab verən yeni məhkəmə quruluşunu ehtiva edir.

Bu islahatlardan sonra ölkəmizdə birinci, apellyasiya və kassasiya instansiyalı üçpilləli məhkəmə sistemi formalaşır. Yeni məhkəmə quruluşu işlərə birinci instansiya məhkəmələrində baxılmasına, onlara hüquqa və fakta görə apellyasiya qaydasında yenidən baxılmasına, daha sonra isə məhkəmə qərarlarının kassasiya qaydasında yoxlanılmasına imkan yaradır. Bu, birinci instansiya məhkəməsinin buraxdığı səhvlərin yuxarı məhkəmə instansiyalarında aradan qaldırılmasına, işlərin mahiyyətcə və prosessual baxımdan düzgün və obyektiv həllində süründürməçiliyin aradan qaldırılmasına, köhnə sistemdən miras qalmış nəzarət instansiyasından imtina edilməsinə zəmin yaradır.

Məhkəmə qərarlarının qanuniliyi üzərində prokuror nəzarətinin aradan qaldırılması, prokurorun məhkəmədə yalnız tərəf kimi iştirak etməsi, ittiham tərəfi ilə müdafiə tərəfi arasındakı tarazlığın bərpası və onların məhkəmə prosesində bərabər hüquqlara malik olması, məhkəmə icraatının çəkişmə prinsipi əsasında həyata keçirilməsi, məhkəmə aidiyyətinin dəyişdirilməsinin qadağan edilməsi, məhkəmə icraatında qeyri-prosessual münasibətlərə yol verilməməsi və sair yeni müddəalar məhkəmə-hüquq sistemində ilk dəfə tətbiq edilir.

Məhkəmə icraatının istənilən mərhələsində hər kəsin müdafiə və yüksək keyfiyyətli hüquqi yardım almaq hüququ təmin olunur. Hüquqi yardıma ehtiyacı olan aztəminatlı şəxslərə hüquqi yardım ödənişsiz və dövlət hesabına göstərilir. Hər kəsin səlahiyyətli dövlət orqanları tərəfindən tutulduğu, həbsə alındığı və cinayət törədilməsində ittiham olunduğu andan müdafiəçinin köməyindən istifadə etmək hüququ yaranır.

Qəbul olunmuş qanunlar məhkəmə sistemində əsaslı dəyişikliklərin aparılmasına, bu sistemin daha mütərəqqi olmasına, təkmilləşməsinə və müstəqil fəaliyyət gostərməsinə imkan yaradır.

Ölkəmizdə məhkəmələr ədalət mühakiməsi ilə bərabər, həm də yeni səlahiyyətlər kimi məhkəmə nəzarəti funksiyasını həyata keçirir. Belə ki, hər kəsin azadlıq, mənzil və şəxsi toxunulmazlıq hüququnu, şəxsi sirrinin saxlanılması hüququnu məhdudlaşdıran, habelə dövlət, peşə və kommersiya sirrini özündə əks etdirən məlumatlar ilə bağlı istintaq hərəkətlərinin məcburi aparılması, prosessual məcburiyyət tədbirlərinin tətbiq edilməsi və ya əməliyyat-axtarış tədbirlərinin görülməsi, habelə, cinayət prosesini həyata keçirən orqanın prosessual hərəkətləri və ya qərarları üzərində qanunvericiliklə müəyyən edilmiş qaydada məhkəmə nəzarəti həyata keçirilir.

İlk dəfə olaraq, qanunvericilik həbs edilmiş hər bir şəxsin tutulmasının qanuniliyi məsələsinin həllini məhkəmələrə həvalə edir. Yeni qanunvericilik cinayət təqibi ilə bağlı hər hansı ayrı-seçkiliyi istisna edir və təqsirsizlik prezumpsiyasına təminat yaradır. "Məhkəmələr və hakimlər haqqında" qanun hakimlərin müstəqilliyinə təminat verir. Məhkəmələrin müstəqilliyini təmin etmək məqsədilə qanunvericiliyin tələblərinə görə hər hansı bir şəxs tərəfindən və ya hər hansı bir səbəbdən, bilavasitə, yaxud dolayı yolla məhkəmə icraatına məhdudiyyət qoyulması, qanunazidd təsir, hədə və müdaxilə edilməsi, habelə, məhkəməyə hörmətsizlik göstərilməsi yolverilməz hesab edilir və qanunvericiliyə müvafiq olaraq, məsuliyyətə səbəb olur. Ədalət mühakiməsi heç bir məhdudiyyət qoyulmadan, faktlara əsasən qərəzsiz, ədalətlə və qanunvericiliyə müvafiq şəkildə həyata keçirilir.

Hakimlərin müstəqilliyi, həmçinin, onların səlahiyyətləri dövründə siyasətsizləşdirilməsi, dəyişməzliyi və toxunulmazlığı ilə, vəzifəyə təyin olunmasının, məsuliyyətə cəlb edilməsinin, səlahiyyətlərinə xitam verilməsinin və vəzifədən kənarlaşdırılmasının məhdudlaşdırılması ilə, hakimlərin şəxsi təhlükəsizliyinin təmin edilməsi ilə həyata keçirilir və onlara yüksək hakim adına uyğun maddi və sosial təminatlar verilir. Ədalət mühakiməsinin zəruri şərtlərindən biri də məhkəmələrin ədalət mühakiməsini məhkəmə hakimiyyətinin yüksək statusuna uyğun olan, bütün prosessual tələblərin yerinə yetirilməsinə imkan verən, hakimlərin öz iradəsini ifadə etmək azadlığına təsiri istisna edən şəraitdə həyata keçirilməlidir. Məhkəmə qərarları hakimlərin sərbəst daxili inamına və məhkəmə araşdırmasının nəticələrinə əsaslanmalıdır.

Qanunvericilik hakimlərə geniş hüquqlar verməklə bərabər, onların üzərinə mühüm vəzifələr qoyur. Hakimlər ədalət mühakiməsini həyata keçirərkən, qanunların tələblərinə dəqiq və dönmədən əməl etməli, məhkəmə fəaliyyətinin mənəvi və tərbiyəvi təsirini təmin etməli, ədalətli və qərəzsiz olmalı, peşə və digər məlumatları gizli saxlamalı, ədalət mühakiməsinin nüfuzuna, hakimin yüksək adına, şərəf və ləyaqətinə xələl gətirən hər hansı hərəkətdən çəkinməlidirlər.

Beləliklə, ölkəmizdə məhkəmə hakimiyyəti həm qanunverici, həm də icra hakimiyyəti tərəfindən hüquq normalarının, ilk növbədə, konstitusion normaların pozulmasının qarşısını alaraq, dövlətlə vətəndaş arasında hüquq münasibətlərinin tənzimlənməsində saxlayıcı və tarazlayıcı rol oynayır.

1997-ci ildə qəbul edilən və başlıca məqsədi Azərbaycan Respublikası Konstitusiyasının aliliyinin təmin edilməsinə yönəlmiş "Konstitusiya Məhkəməsi haqqında" qanun və sonrakı dəyişikliklər Konstitusiya Məhkəməsinə Konstitusiyanın və qanunların şərh edilməsi, qanunların və digər normativ aktların, Ali Məhkəmənin qərarlarının, bələdiyyə aktlarının, dövlətlərarası və hökumətlərarası müqavilələrin konstitusiyaya uyğunluğunun yoxlanılması, insanların konstitusion hüquqlarının müdafiəsi ilə bağlı fərdi şikayətlərə baxılması, qanunvericilik, icra və məhkəmə hakimiyyətləri arasında səlahiyyətlər bölgüsü ilə bağlı mübahisələrin həll edilməsi səlahiyyətləri və konstitusiyanın müdafiəsinə imkan yaradan digər səlahiyyətlər verilir.

Cəmiyyətin inkişafı, yeni iqtisadi münasibətlərə keçid prokurorluğun funksiyalarına və statusuna da yenidən baxılmasına gətirib çıxarır. Sovet İttifaqı dövründə prokurorluq mahiyyət etibarilə, demək olar ki, qeyri-məhdud səlahiyyətlərə malik idi və hakimiyyətlər bölgüsü olmadığı bir şəraitdə, hətta məhkəməyə, o cümlədən, Konstitusiya Məhkəməsinə aid olan bir sıra funksiyaları da həyata keçirirdi.

Prokurorluqda həyata keçirilən islahatların əsas məqsədi ölkənin gələcək inkişafına və demokratik-hüquqi dövlət quruculuğu prinsiplərinə uyğun olaraq, prokurorluğun səlahiyyətlərinin beynəlxalq standartlara uyğunlaşdırılması, qanunçuluğun möhkəmləndirilməsi, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi və kadrların peşəkar səviyyəsinin artırılması idi.

Bu məqsədlə prokurorluq konstitusiyada məhkəmə hakimiyyəti fəslinə daxil edilir və prokurorluğun demokratik cəmiyyətlərə xas funksiyaları müəyyən olunur. 1995-ci il Konstitusiyası prokurorluğu ərazi prokurorlarının və ixtisaslaşdırılmış prokurorların Azərbaycan Respublikasının Baş prokuroruna tabeliyinə əsaslanan vahid mərkəzləşdirilmiş orqan kimi tanımış və onun statusunu müəyyənləşdirmişdir.

1999-cu ildə qəbul edilən "Prokurorluq haqqında" qanunla prokurorluğun məhkəmələr üzərində nəzarəti və bazar iqtisadiyyatı münasibətlərinin inkişafına mane olan ümumi nəzarət funksiyaları ləğv olunmuş, onun mülki və kommersiya işlərinə müdaxilə etməsi məhdudlaşdırılmışdır. İnsan hüquq və azadlıqlarını məhdudlaşdıran prosessual hərəkətlərin prokurorluq tərəfindən həyata keçirilməsinə qanunla müəyyən edilmiş hallarda və qaydada yalnız məhkəmənin qərarına əsasən yol verilir. Prokurorluğun islah-əmək müəssisələrində və nəqliyyatda qanunların icrasına nəzarət funksiyaları aradan qaldırılmışdır.

Hazırda prokurorluğun fəaliyyət istiqamətləri aşağıdakılardır, cinayət işi başlamaq və ibtidai istintaq aparmaq, cinayət işi üzrə ibtidai araşdırmaya prosessual rəhbərlik etmək və qanunlara riayət olunmasını təmin etmək, təhqiqat və əməliyyat-axtarış orqanlarının fəaliyyəttndə qanunların icrası və tətbiqinə nəzarət, məhkəmədə iddia qaldırmaq, mülki və iqtisadi mübahisələrə dair işlərə baxılmasında iddiaçı kimi iştirak etmək, məhkəmədə dövlət ittihamını müdafiə etmək, məhkəmə qərarlarından protest vermək, məhkəmələr tərəfindən təyin edilmiş cəzaların məqsədinə nail olunmasında iştirak etmək.

2002-ci il sentyabrın 19-da qüvvəyə minmiş "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" referendum aktına əsasən, prokurorluğa həm də qanunvericilik təşəbbüsü hüququ verilmişdir.

Hüquq islahatları çərçivəsində həyata keçirilən tədbirlərdən biri də "Vəkillər və vəkillik fəaliyyəti haqqında" qanunun qəbul olunmasıdır. Bu qanun hər bir şəxsin məhkəmə prosesində, ibtidai istintaqda və təhqiqatda öz hüquq və mənafelərinin müdafiəsini həyata keçirmək üçün seçdiyi vəkilə müraciət etməsinə, tutulduğu, həbsə alındığı, cinayət törədilməsində ittiham olunduğu andan müdafiəçinin köməyindən istifadə etməsinə, fiziki və hüquqi şəxslərin hüquqlarının, azadlıqlarının və qanunla qorunan mənafelərinin müdafiə olunmasına, onlara yüksək keyfiyyətli hüquqi yardım göstərilməsinə imkan yaradır.

Budan əlavə, qanun vəkillərin hüquqi statusunu müəyyənləşdirir, ittiham və müdafiə tərəflərinin hüquq bərabərliyini təmin edir, hüquqların müdafiəsinə, məhkəmədə araşdırmanın ədalətli aparılmasına və vəkilin müstəqilliyinə təminat verir.

İnsan hüquq və azadlıqlarını təmin etmək və polisin fəaliyyətini tənzimləmək məqsədilə hüquq-mühafizə orqanları sistemində mühüm yer tutan "Polis haqqında" qanun qəbul edilmişdir. Qanuna görə, polis ictimai qaydanın qorunması, ictimai təhlükəsizliyin təmin edilməsi, cinayətlərin və digər hüquq pozmaların qarşısının alınması və onların açılması, habelə, yol hərəkətinin təhlükəsizliyinin təmin edilməsi istiqamətində fəaliyyət göstərir. Qanunda polisin səlahiyyətləri dəqiq müəyyən olunmuş, polis fəaliyyəti üzərində nəzarət mexanizmləri təsis edilmiş, polis əməkdaşlarının qanunsuz hərəkətlərindən və qərarlarından məhkəməyə müraciət hüququ təsbit olunmuşdur.

Respublika Dövlət Təhlükəsizliyi Komitəsinin maddi-texniki və kadr bazası əsasında 1991-ci ildə Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi yaradılmışdır. Qısa müddət ərzində, təhlükəsizlik orqanlarında milliləşmə başa çatmış, onun qarşısında duran vəzifələrin məzmunu və mahiyyəti dəyişmişdir. Milli Təhlükəsizlik Nazirliyi qarşısında Azərbaycan Respublikasının suverenliyinə, konstitusiya quruluşuna, iqtisadi, müdafiə, elmi-texniki potensialına, digər həyati əhəmiyyətli maraqlarına qarşı xarici dövlətlərin xüsusi xidmət orqanlarının və təşkilatlarının, cinayətkar qrupların və ayrı-ayrı şəxslərin kəşfiyyat və digər təxribat-pozuculuq fəaliyyətinin qarşısını almaq kimi vəzifələr qoyulur.

Cəmiyyətin demokratikliyi onun hər bir üzvünün, hətta qanunları pozaraq, cinayət törətmiş şəxslərin hüquqlarının qorunması ilə də ölçülür. Bu mənada, penitensiar sistemdə aparılan islahatlar ölkəmizdə həyata keçirilən genişmiqyaslı islahatlardan geri qala bilməzdi. SSRİ-nin "QULAQ" sisteminə xas, cəzanı insan şəxsiyyətindən üstün tutan köhnə təfəkkür və stereotiplərin aradan qaldırılması məqsədilə penitensiar sistemdə hüquqi və təşkilati tədbirlər həyata keçirilmişdir.

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# səs

Son səhifə 6 mart


## Dünyanın ən varlı adamının adı açıqlanıb

"Forbes" jurnalının versiyasına görə, dünyanın ən varlı adamlarının siyahısına ardıcıl olaraq ikinci dəfə "Amazon" şirkətinin sahibi Ceff Bezos başçılıq edib. CNN telekanalının saytında yer alan məlumata görə, internet üzərindən mal və xidmətlərin satışını həyata keçirən şirkətin sahibinin sərvəti 112 milyard dollardır. Müqayisə üçün qeyd edilib ki, Bezosun sərvətinin cəmi 1 faizi 105 milyon əhalisi olan Efiopiyanın dövlət büdcəsindən səhiyyə üçün ayrılan xərclərdən çoxdur. Eyni zamanda, "Forbes" bildirib ki, hazırda boşanma ərəfəsində olan milyarder sərvətinin yarısını itirə bilər və belə olan halda onun həyat yoldaşı Makkenzi planetin ən varlı qadınına çevriləcək. Qeyd edək ki, "Forbes" jurnalının versiyasına görə, son 10 ildə milyarderlərin sayı ikiqat artıb.

## Fransanın 500 ən varlı ailəsinin siyahısı açıqlanıb

Fransanın həftəlik "Challenges" jurnalı 2018-ci il üçün ölkənin 500 ən varlı ailəsinin siyahısını açıqlayıb. AZƏRTAC xəbər verir ki, jurnalın təqdimatında Bernard Arnault və ailəsinə məxsus Louis Vuitton Moet Henessy (LVMH) lüks markası 73 200 milyard avro ilə birinci, "Chanel", "Eres", "Bourgeois" markaları və bir çox qəsrlərin sahibi Alən və Jerar Vertemer və ailələri 40 milyard avro ilə ikinci pillədə durub.

"Hermes" markası ilə Aksel Dumas və ailəsi 39 600 milyard avro ilə üçüncü yerdədir. Həmçinin "OREAL" qrupu 39 300 milyard avro ilə dördüncü, "Auchan" qrupu 30 500 milyard avro ilə beşinci, "Kering" qrupu 38 000 milyard avro ilə altıncı, "Marcel Dassault" sənaye qrupu 23 800 milyard avro ilə yeddinci, "Kastel" qardaşları qrupu 12 500 milyard avro ilə səkkizinci, "Laktalis" aqroərzaq qrupu 12 000 milyard avro ilə doqquzuncu və "PERENKO" enerji kampaniyası 8 500 milyard avro ilə onuncu yerdə göstərilib.

## Alimlər piylənmənin faydasını öyrəniblər

Orqanizmdə piyin miqdarının çox olması insultdan sonra sağ qalmaq şansını yüksəldir. Amerika Nevrologiya Akademiyasının məlumatında deyilir ki, Los-Anceles şəhərindəki Kaliforniya Universitetinin alimləri bu qənaətə gəliblər.

Həkimlər piylənmə paradoksu ilə ilk dəfə qarşılaşmırlar. Bu o deməkdir ki, artıq çəkinin orqanizmin sağlamlığına təkcə təhlükə (ürək-damar xəstəlikləri, diabet, xərçəngin inkişafı riskinin artması və s.) yaratdığını düşünmək düzgün deyil. Axı, artıq çəki bəzən orqanizmi qoruyur.

Tədqiqatın müəllifi Tszolu Lyu deyib: "Məlumdur ki, artıq çəki böyrək və ürək xəstəliklərindən əziyyət çəkən insanların sağ qalmasına kömək edir. Buna görə də biz belə bir məsələni aydınlaşdırmaq istədik: artıq çəki insultda sağ qalmaq imkanlarını da artırırmı?".

Bir qrup alim kəskin işemik insult keçirmiş 1033 xəstənin (orta yaş 71) vəziyyətini üç ay ərzində müşahidə edib. İştirakçıların bədən kütləsi indeksindən (BKİ) asılı olaraq onları beş qrupa bölüblər. Tədqiqat göstərib ki, piylənmənin ağır formasından əziyyət çəkən insanlar çəkisi normal olanlara nisbətən insultun nəticələrindən 62 faiz az ölürlər. Sadəcə, artıq çəki onların sağ qalmaq şansını 46 faiz artırır. Çəkisi bir qədər artıq olanların isə sağ qalmaq şansı 15 faiz artır. Bu nəticələr alimlər yüksək qan təzyiqi, yüksək xolesterin səviyyəsi, yaxud siqaret çəkmək kimi göstəriciləri nəzərə alandan sonra hesablanıb.


### ELAN

ADPU-nun Fizika ixtisası üzrə II kurs tələbəsi Seyidzadə Nərgiz Elman qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

***

ADPU-nun Riyaziyyat müəllimliyi ixtisası üzrə II kurs tələbəsi Əliyeva Səkinə Zahid qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.


### BAŞSAĞLIĞI

"Səs" qəzetinin baş redaktoru Bəhruz Quliyev qəzetin əməkdaşı Rəfiqə Kamalqızına dayısı

**Əliqulu Cahangirovun**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

***Allah rəhmət eləsin.***

## Kliçkonun yenidən rinqə qayıtması üçün 40 milyon dollarlıq təklif!



Tanınmış ukraynalı boksçu Vladimir Kliçkonun yenidən rinqə qayıtması üçün 40 milyon dollar təklif edilib. Ukrayna mətbuatının yazdığına görə, təklif olunan müqavilə əsasında Kliçko üç döyüşə çıxmalıdır. Birinci döyüş Almaniyada ən güclü onluqda olan boksçu ilə, ikinci və üçüncü döyüşlər isə Entoni Djouş və Tayson Fyuri ilə olmalıdır. Əgər razılıq olsa, hər üç döyüş may, sentyabr və dekabr aylarında keçiriləcək.

Qeyd edək ki, 2017-ci ilin avqust ayında ağır çəki üzrə sabiq dünya çempionu Vladimir Kliçko karyerasına son qoyduğunu rəsmən bəyan edib. Vladimir Kliçko 1996-cı ildən peşəkar boks yarışlarında çıxış etməyə başlayıb. O, WBO, IBO, IBF və WBA versiyaları üzrə dünya çempionu olub. 1996-cı ildə Atlantada keçirilən Olimpiya Oyunlarında qızıl medal qazanıb. 21 illik karyerasında 69 döyüşü olub, onlardan 64-də qalib gəlib.

## Rojer Federer ATP turnirlərində 100-cü titulunu qazanıb



İsveçrəli Rojer Federer Peşəkar Tennis Assosiasiyasının (ATP) Dubayda təşkil etdiyi turnirin qalibi olub. Belə ki, isveçrəli tennisçi finalda Yunanıstan təmsilçisi Stefanos Tsıtsipası məğlub edib - 6:4, 6:4. Federer üçün bu titul karyerasında 100-cü olub. Rojer Federer tennis tarixində bu nailiyyəti təkrarlayan ikinci idmançı olub. Bundan əvvəl 100 titulu hazırkı rekordçu amerikalı tennisçi Cimi Connors (109) qazanıb.

Rojer tennis tarixində "Böyük dəbilqə" seriyalı turnirlərində ən çox - 20 dəfə qalib gələn ilk idmançıdır. O, həmçinin 2008-ci və 2012-ci illərdə Olimpiya Oyunlarında fəxri kürsün ən yüksək pilləsinə qalxmağa nail olub. Federer ATP-nin reytinqində 310 həftə liderliyini qoruyan yeganə tennisçidir.

## "San Siro" stadionu söküləcək?



İtaliyanın "Milan" və "İnter" komandalarının ev oyunları keçirdikləri məşhur "San Siro" stadionunun sökülərək yerində 60 min tamaşaçı tutumuna malik yeni stadionun tikintisi nəzərdə tutulur. İtaliyanın "it.eurosport.com" saytında yer alan məlumata görə, 600 milyon avroya başa gələcək stadionun 2023-cü ilə qədər hazır olması planlaşdırılır.

"Milan" klubu sözügedən arenanın yerində yeni stadionun inşası üçün şəhər rəhbərliyinin razılığını alıb. Lakin bildirilir ki, "San Siro"nun sökülməsi üçün "İnter" klubunun da layihəyə "yaşıl işıq" yandırması lazımdır.

Qeyd edək ki, 80 min tamaşaçı tutumuna malik "San Siro" stadionu 1926-cı ildə inşa edilib. Futbol arenasında 1934-cü və 1990-cı illərdə dünya çempionatlarının, 1965-ci və 1970-ci illərdə Avropa çempionlar kubokunun, 2001-ci və 2016-cı illərdə isə Çempionlar Liqasının final oyunları keçirilib.

## Ramil Şeydayev Rusiya çempionatının 18-ci turunun rəmzi komandasında yer alıb




Futbol üzrə Azərbaycan millisinin üzvü Ramil Şeydayev Rusiya çempionatının 18-ci turunun rəmzi komandasının heyətində yer alıb. Rusiya çempionatının rəsmi saytında yer alan məlumata görə, "Krılya Sovetov" klubunun hücumçusu olan R.Şeydayev Moskvanın "Lokomotiv" klubu ilə görüşdə komandasını məğlubiyyətdən xilas edib. Buna görə həmyerlimiz 18-ci turun ən yaxşı iki hücumçusundan biri olub.

R.Şeydayev peşəkar futbolçu karyerasına 2013-cü ildə "Zenit 2" komandasında başlayıb. O, 2018-ci ilin sonunda "Qarabağ" klubundan "Krılya Sovetov"a transfer edilib.


*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.**
**"Azərbaycan" nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**